

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

24 SENTYABR 2019-cu il ÇƏRŞƏNBƏ AXŞAMI № 209 (6536) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ


## Quba rayonunun Quba-Qusar (9 km)-Alpan-Kürkün-Susay avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Beş min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Quba-Qusar (9 km)-Alpan-Kürkün-Susay avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13,4 milyon (on üç milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 sentyabr 2019-cu il.**

## Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Əziz qonaqlar!

Sizi Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının açılışı münasibətilə səmimi qəlbdən salamlayıram. Belə mötəbər tədbirin ölkəmizin paytaxtında yenidən keçirilməsindən məmnunluğumu bildirirəm.

Biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir. Müxtəlif bilik və bacarıqların yoxlanılması zamanı nəticələrin obyektiv qiymətləndirilməsi və müasir ölçmə metodlarından istifadə edilməsi böyük əhəmiyyətə malikdir. "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusuna həsr olunan hazırkı konfrans bu baxımdan təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılmasına, eləcə də qiymətləndirmə və qərarvermədə yeni tendensiyaların yaradılmasına öz töhfəsini verəcəkdir.

Azərbaycanın təhsil sistemində son illərdə bir sıra uğurlar qazanılmışdır. Biz postsovet məkanında müasir qiymətləndirmə sistemini tətbiq edən ilk ölkələrdənik. Sistemin fəaliyyəti cəmiyyətimiz və qiymətləndirməni təşkil edən forumlar tərəfindən indi də yüksək dəyərləndirilir. Ölkəmizdə, eyni zamanda, beynəlxalq qiymətləndirmənin inkişaf prinsiplərinə əsaslanaraq lazımi araşdırmalar aparılmış və bu istiqamətdə normativ hüquqi baza təkmilləşdirilmişdir.

Qərar qəbuletmə prosesində qiymətləndirmənin etibarlılığı və daha düzgün qərar qəbul etmək üçün müvafiq qiymətləndirmə üsullarının müəyyən edilməsi aktual məsələlərdəndir. Əminəm ki, 55 ölkədən 300-dən artıq ekspertin qatıldığı konfransınızda qiymətləndirmə sisteminin müxtəlif aspektləri ilə bağlı geniş müzakirələr yeni qiymətləndirmə texnologiyalarının səmərəli tətbiqində və standartların formalaşdırılmasında mühüm rol oynayacaqdır.

Hamınıza cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

**Mehriban ƏLİYEVA,**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti.**

**Bakı şəhəri, 23 sentyabr 2019-cu il.**

*Sinxua:*

# Çin və Azərbaycan əməkdaşlığın möhkəmləndiriləcəyini vəd edirlər

**Çin kütləvi informasiya vasitələri Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərini diqqətdə saxlayıb.**

AZƏRTAC xəbər verir ki, ölkənin əsas media qurumlarından milli xəbər agentliyi Sinxua, Çin Mərkəzi Televiziyası (CCTV), rəsmi "Renmin Ribao" qəzeti, digər populyar xəbər saytları mövzu ilə bağlı Çin, ingilis və rus dillərində dəfələrlə reportajlar və xəbərlər, geniş məqalələr hazırlayıblar.

Sinxua agentliyinin "Diqqət mərkəzində: Çin və Azərbaycan əməkdaşlığın möhkəmləndiriləcəyini vəd edirlər" başlıqlı reportajında Prezident İlham Əliyevin Çin qanunverici orqanının rəhbəri Li Canşu ilə görüşündə iki ölkə arasında münasibətlərin sürətlə inkişafı ilə bağlı səsləndirdiyi fikirlərə geniş yer verilib.

Reportajda, həmçinin nümayəndə heyətinin Milli Məclisin sədri Oqtay Əsədov və Baş Nazir Novruz Məmmədov ilə görüşlərindən, ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarətindən, Heydər Əliyev Mərkəzi və xalça muzeyi ilə tanışlığından söz açılır.

Çin KİV-lərinin mövzu ilə bağlı materiallarında Li Canşunun sözlərinə istinadla qeyd olunur ki, Çin nümayəndə heyətinin Bakıya səfəri dövlət başçılarının Azərbaycan ilə Çin arasında münasibətlərin inkişafı ilə bağlı əldə etdiyi razılaşmaların icrasına və qanunverici orqanlar arasında əməkdaşlığın dərinləşməsinə dəstək məqsədi daşıyır.




Li Canşunun "Hər bir ölkənin nadir tarixi, milli şəraiti və mədəniyyəti var. Ona görə də fərqli sivilizasiyalar harmoniyalı şəkildə yaşamalı və bir-birindən öyrənməlidir" fikrini vurğulayan Çin KİV-ləri yenə Çin rəsmisinə istinadla yazır ki, Ümumçin Xalq Nümayəndələri Yığıncağı Azərbaycanın Milli Məclisi ilə xalqlarımız və dövlətlərimiz arasında əlaqələrin və mübadilənin inkişafı istiqamətində əməkdaşlıqda maraqlıdır.

Materiallarda iki ölkə arasında iqtisadi əlaqələrdən də söz açılaraq bildirilir ki, Li Canşu Baş Nazir Novruz Məmmədov ilə görüşdə Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycanın "Bir kəmər, bir yol" boyunca vacib ölkə olduğunu deyib.

Daimi Komitənin sədri ölkəsinin Azərbaycan ilə iqtisadi və ticari əməkdaşlığı dərinləşdirməyə, "Bir kəmər, bir yol" strategiyasının icrasında əməkdaşlığa hazır olduğunu deyib.

**AZƏRTAC**

# Nazirlər Kabinetinin növbəti iclası keçirilib

**Sentyabrın 23-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov gündəlik barədə məlumat verib. Bildirib ki, iclasda "Azərbaycan Respublikasının 2020-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2020-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında" məsələ müzakirə olunacaq.

Novruz Məmmədov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev artıma və inkişafa əsaslanan iqtisadiyyatın şaxələndirilməsini və qeyri-neft sektorunun prioritetliyini təmin edən dayanıqlı icmal büdcənin və dövlət büdcəsinin hazırlanmasını qarşımıza qoyulan əsas vəzifələrdən biri kimi müəyyənləşdirib. Azərbaycan Respublikasının 2020-ci il üçün dövlət büdcəsinin layihəsi "Büdcə sistemi haqqında" Qanuna müvafiq olaraq ölkənin ortamüddətli büdcə və maliyyə sistemi, sosial-iqtisadi inkişaf proqnozları, qəbul edilmiş dövlət proqramlarının maliyyə təminatı əsas götürülməklə gələn il və sonrakı üç il üzrə makroiqtisadi proqnoz göstəriciləri, gözlənilən iqtisadi meyillər də nəzərə alınmaqla hazırlanıb. "Əminəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan və müasir çağırışlara cavab verən uğurlu sosial-iqtisadi siyasət qarşıdakı ildə də davam etdiriləcək, nəzərdə tutulan hədəflərə nail olunması ilə ölkəmizin davamlı inkişafı təmin ediləcək", - deyə Baş Nazir vurğulayıb.

Baş Nazir bildirib ki, dünya iqtisadiyyatında geriləmələrin müşahidə olunduğu bir vaxtda ölkəmizdə 2020-ci ildə ümumi daxili məhsulun həcminin 82,7 milyard manatdan çox, real artımın 2,4 faiz, qeyri-neft sektorunda artımın isə 3,3 faiz səviyyəsində olacağı proqnozlaşdırılır. Müzakirəyə təqdim olunan sənədlər iqtisadiyyatın səmərəliliyinin və dayanıqlılığının təmin edilməsinə, onun aparıcı sahələrinin möhkəmləndirilməsinə, əhalinin sosial rifahının, qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasına yönəldilib. Növbəti ildə dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi, təhsil islahatlarının davam etdirilməsi, elektrik təchizatı, içməli su, qaz və kanalizasiya sistemlərinin, yol tikintisinin maliyyələşdirilməsi əsas istiqamətlərdəndir. Eyni zamanda, layihədə kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi, əhalinin əsas ərzaq məhsulları ilə təmin olunması, aqrar sektora dövlət qayğısının artırılması və investisiya layihələrinin prioritetləşmə prinsiplərinə uyğun maliyyələşdirilməsi nəzərdə tutulur. 2020-ci ilin dövlət büdcəsinin layihəsində gəlirlərin ümumi daxili məhsulun 29,1 faizini, xərclərin isə 30,9 faizini təşkil edəcəyi, büdcə kəsirinin ümumi daxili məhsulun 1,4 faizi səviyyəsində olacağı proqnozlaşdırılır. Eyni zamanda, gələn il üzrə icmal büdcənin gəlirlərinin 27,6 milyard manat, xərclərinin 28,2 milyard manat həddində olacağı gözlənilir.

Sonra Maliyyə naziri Samir Şərifovun və İqtisadiyyat naziri Şahin Mustafayevin məruzələri dinlənilib.

İclasda gündəlikdəki məsələ ilə bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

**AZƏRTAC**

# Azərbaycan Milli Məclisinin Sədri Nur-Sultanda Naxçıvan Sazişinin 10 illiyi ilə bağlı keçirilən "dəyirmi masa"da iştirak edib

**Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti sentyabrın 23-də Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultan şəhərinə səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Oqtay Əsədovun və Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntopun rəhbərliyi ilə nümayəndə heyətləri Beynəlxalq Türk Akademiyasında olub, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişinin imzalanmasının 10 illiyi münasibətilə keçirilən "dəyirmi masa"da iştirak ediblər.

"Dəyirmi masa"da Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali bildirib ki, 2009-cu ildə türkdilli ölkələrin dövlət başçılarının ortaq qərarı əsasında Azərbaycanın Naxçıvan şəhərində yaradılan Akademiyanın əsas məqsədi türk xalqlarının qədim və müasir tarixi, dil, ədəbiyyat və mədəniyyətini, habelə türk mədəniyyətinin bəşər sivilizasiyasına töhfəsini tədqiq etmək, türk dünyasında akademik fəaliyyətin əlaqələndirilməsini həyata keçirməkdir. Bu məqsədlə Akademiya türk xalqlarının elmi qurumlarına elm və təhsil məsələsində yardımçı olur, türkdilli ölkələr və xalqların ziyalılarının təşəbbüslərinə dəstək verir, onları müntəzəm olaraq bir araya gətirir. Akademiyanın prezidenti Azərbaycana və Türkiyəyə türkdilli dövlətlər arasında inteqrasiyaya verdikləri dəstəyə görə təşəkkür edib. O, Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi ilə əlaqədar ötən il UNESKO-nun baş qərargahında təşkil olunan beynəlxalq forum çərçivəsində Cümhuriyyətin 100 illik yubileyinin qeyd olunduğunu vurğulayıb. "Bu il isə "Nəsimi İli" çərçivəsində yenə də UNESKO-nun baş qərargahında keçirilən forumda böyük şairin 650 illik yubileyi və Naxçıvan Sazişinin 10 illiyi qeyd olunub", - deyə D.Kıdırali bildirib.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntop türk dünyasının beynəlxalq münasibətlərdə güclü aktora çevrilməsinin vacibliyini və bu prosesdə bu il 10 illiyi qeyd olunan Naxçıvan Sazişi ilə qurulan ortaq regional təşkilatların rolunu vurğulayıb. Türk Şurası, TÜRKPA, Beynəlxalq Türk Akademiyası kimi təşkilatların qısa zamanda mühüm işlər gördüyünü deyən M.Şəntop "dəyirmi masa"ya ev sahibliyi edən Beynəlxalq Türk Akademiyasının vacib elmi tədqiqatlar və elmi ekspedisiyalar təşkil etdiyini, çox sayda kitablar nəşr etdirdiyini söyləyib və bu istiqamətdə fəaliyyətin beynəlxalq səviyyədə təşviqinin önəmli olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Sədri Oqtay Əsədov Naxçıvan Sazişinin imzalanmasının böyük tarixi hadisə olduğunu deyib və onun türkdilli dövlətlərin əməkdaşlığında yeni bir səhifə açdığını bildirib. Sədr hazırda türkdilli xalqların inteqrasiyasına xidmət göstərən önəmli təşkilatların - TÜRKPA-nın Baş Katibliyinin və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun qərargahının Bakıda yerləşdiyini vurğulayıb. O, son illər Beynəlxalq Türk Akademiyasının fəaliyyətinin xüsusilə nəzərə çarpdığını, yaradıldığı qısa müddət ərzində onun türkdilli xalqların tarixi, mədəni və mənəvi irsinin araşdırılması və təbliği sahəsində bir sıra uğurlara imza atdığını qeyd edib. Parlamentin Sədri əmin olduğunu bildirib ki, Akademiya öz fəaliyyəti ilə ümumi dəyərlərimizin qorunmasına və inkişafına hələ çox töhfələr verəcək.

Sonra Oqtay Əsədova və Mustafa Şəntopa türkdilli dövlətlər və xalqlar arasında inteqrasiyanın dərinləşdirilməsi, təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın inkişafında xidmətlərinə görə Beynəlxalq Türk Akademiyasının qızıl medalı təqdim olunub.

Həmçinin səfər çərçivəsində qonaqlar Beynəlxalq Türk Akademiyasında fəaliyyət göstərən Türk Muzeyini ziyarət edib və türkologiya sahəsində 50 mindən çox nadir kitabın toplandığı kitabxana ilə tanış olublar.

Xatırladaq ki, Milli Məclisin Sədri Oqtay Əsədov Nur-Sultan şəhərində keçiriləcək Avrasiya ölkələri parlament sədrlərinin IV konfransında iştirak edəcək. Tədbirə Avropa və Asiyanın müxtəlif ölkələrinin parlament rəhbərləri və nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri dəvət olunublar.

"Böyük Avrasiya: Dialoq. Etimad. Tərəfdaşlıq" mövzusunda keçiriləcək konfransın əsas məqsədi Avrasiya məkanında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün Avropa və Asiyanın qanunverici orqanlarının rəhbərləri və parlamentlərarası təşkilatların başçıları arasında birbaşa dialoqun qurulmasıdır.

Səfər çərçivəsində Milli Məclis Sədrinin tədbirdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri də nəzərdə tutulub.

**AZƏRTAC**

# Bakıda IAEA 2019 beynəlxalq konfransının açılış mərasimi keçirilib



















**Sentyabrın 23-də Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA: International Association for Educational Assesment) "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik beynəlxalq konfransının (IAEA 2019) rəsmi açılış mərasimi keçirilib. Konfransın Azərbaycanda təşkilatçısı Dövlət İmtahan Mərkəzidir.**

IAEA-nın illik konfransı ölkəmizdə ikinci dəfədir təşkil olunur. Builki konfransın işində Azərbaycanla birgə 55 ölkədən 300-dən çox nümayəndə iştirak edir.

Konfransın rəsmi açılış mərasimində iştirakçılar Azərbaycan Respublikasının dövlət himnini ifa ediblər.

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən IAEA prezidenti Rendi Bennett Dövlət İmtahan Mərkəzinin IAEA-nın mövzularla zəngin bu tədbirinin Azərbaycanda yenidən keçirilməsi üçün səylə çalışdığını vurğulayıb. Bildirib ki, Dövlət İmtahan Mərkəzi maraqlı və informativ elmi proqram, habelə Xəzərin sahilində yerləşən gözəl Bakı şəhərində bir sıra sosial tədbirlər işləyib hazırlayıb. IAEA 2019 təhsilin qiymətləndirilməsini necə inkişaf etdirə biləcəyimiz ətrafında stimullaşdırıcı mübadilə ilə dolu xüsusi bir konfrans vəd edir. Konfransın "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusu apardığımız araşdırmanın və tətbiq etdiyimiz təcrübənin mərkəzində qiymətləndirmənin məqsəd və istifadəsini qoyur. "Qoy bu konfrans zəngin ideya və diskussiyalarla, habelə təşviq edəcəyi zəngin qarşılıqlı əlaqələrlə yadda qalsın. Təhsilin səmərəliliyini artırmaq və dünyanı daha da yaxşılaşdırmaq naminə birgə işləməyimizə kömək etsin", - deyən Rendi Bennet konfrans iştirakçılarına məhsuldar və xoş həftə arzulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik beynəlxalq konfransının iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub *(məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).*

Tədbirdə çıxış edən Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə konfransın Bakıda ilk dəfə 2007-ci ildə keçirildiyini xatırlayaraq deyib: "Əvvəlki tədbirimizdən artıq 12 il keçib. Bu müddət ərzində həm biz dəyişmişik, həm də dünya bir çox yeni nəzəri, mədəni və texnoloji yeniliklərin təsirlərinə məruz qalıb. Bütün bunlar da öz növbəsində öyrətməyə, öyrənməyə və ümumilikdə təhsilə təsirsiz ötüşməyib. Bu cür böyük dəyişikliklər, heç şübhəsiz, təhsildə qiymətləndirmədə də dəyişikliklərə səbəb olmalıdır. Artıq onilliklərdir ki, qiymətləndirmə təhsildə aktuallaşan prioritetlərdən birinə çevrilib və bu sahədə islahatlar aparılması da əsas müzakirə mövzularındandır.

Nailiyyətlərin sınağı və bu barədə ictimaiyyətə hesabat verilməsi, uşaqların həyat imkanlarını genişləndirmək məqsədilə mövcud resurslardan istifadə barədə siyasətçiləri və cəmiyyəti aşkar məlumatlandıra biləcək azsaylı vasitələrdən biri kimi görünür.

Keçmiş təcrübəyə və ötən il Oksfordda "Qiymətləndirmə və böyük verilənlər" mövzusu üzrə keçirilən konfransın nəticələrinə əsaslanaraq söyləyə bilərik ki, əksər qiymətləndirmələr zamanı məlumatların azlığı qarşıya çıxan problemlər arasında yer almır. Çünki əslində əksər hallarda aydın qərar qəbul etmək üçün kifayət qədər çox məlumat bazası olur. Buna görə də builki konfransın mövzusunu daha çox müzakirəyə ehtiyac duyulan istiqamətdə - "Qiymətləndirmə və qərar qəbuletmə" kimi müəyyən etdik.

Məhz bu baxımdan, institusional islahat vasitəsi kimi təhsildə qiymətləndirməni təşviq edən ən yaxşı qiymətləndirmə tədqiqatçılarını və əsas şəxsləri konfransımıza dəvət etdik. Onlar sizinlə qiymətləndirməyə əsaslanan qərar qəbuletmənin müxtəlif perspektivlərini müzakirə edəcəklər. Bu sıraya ibtidai təhsildə test, dil biliklərinin qiymətləndirilməsi, qiymətləndirmə sistemləri, sinif qiymətləndirməsi, qiymətləndirmə fəlsəfələri, qiymətləndirmənin yoxlanılması sistemləri, qiymətləndirmənin tərtib olunması, müəllimlərin sertifikasiyası daxildir. Həmçinin qərar qəbuletmə, siyasətin formalaşdırılması, ali təhsil, qiymətləndirmə strategiyaları, müəllim inkişafı, psixoloji qiymətləndirmə, müəllim hazırlığı və qiymətləndirmə, yazı işlərinin qiymətləndirilməsi, validlik, qiymətləndirmə metodları, müqayisəli tədqiqatlar, diaqnostik qiymətləndirmə, qiymətləndirmə standartları, testdə keyfiyyətin təmin olunması, seçim üçün qiymətləndirmə, texnologiya, qiymətləndirmə islahatları, qiymətləndirmənin tətbiqi modelləri, qəbul proqnozları, regional inkişaf müzakirə olunacaq əsas mövzulardır.

Bundan əlavə, biz, Astana Dövlət Qulluğu üzrə Regional Xab tərəfindən dəstəklənən dövlət qulluğu panelini də builki proqrama daxil etmişik. ümid edirəm ki, panel sessiyaları və müzakirələr intellektual baxımdan stimullaşdırıcı və faydalı olacaq.

Biz yeni ideyaların yaranmasında, qarşılıqlı əməkdaşlığın qurulmasında çox maraqlıyıq! Biz buna çərşənbə günü Cambridge Assessment (Kembric Qiymətləndirmə) ilə tərəfdaşlıq sazişi imzalamaqla başlayırıq. Biz təhsildə qiymətləndirmə üsullarının tətbiqi ilə əlaqədar olan hər bir kəslə əməkdaşlıq etməyə hazırıq və bunu səbirsizliklə gözləyirik.

Tərəfdaşlarımız, sponsorlarımız və bütün bizə dəstək olanlarla birgə sizin Bakıya bu gəlişinizi xoş xatirələrlə zəngin və unudulmaz etməyə çalışmışıq!

Bu həftə burada toplaşan və Bakını yenidən təhsilin qiymətləndirilməsi üzrə müzakirələr mərkəzinə çevirən hər bir kəsə dərin təşəkkürümü bildirirəm".

Təhsil naziri Ceyhun Bayramov ölkəmizdə bu cür nüfuzlu tədbirin təşkilinin əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırıb ki, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının əsas istiqamətləri sırasında səriştəyə əsaslanan təhsil məzmununun və yeni təhsil idarəetmə sisteminin yaradılması, ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsi və yüksəkixtisaslı kadrlar hazırlanmasının təmin edilməsi, rəqabətqabiliyyətli mütəxəssislər yetişdirilməsi, həmçinin təhsilin beynəlmiləlləşdirilməsi imkanlarının genişləndirilməsi önəmli məsələlərdir. Son 6 ildə təhsilin keyfiyyətində xeyli irəliləyiş əldə edilib. Əldə olunan nailiyyətlərin gedişatını ölçmək üçün Azərbaycan bir sıra beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirak edir. "Progress in İnternational Reading Literacy Study" (PİRLS) - oxu bacarığının inkişafı üzrə beynəlxalq tədqiqatın nəticələrinə görə, azərbaycanlı şagirdlərin 2016-cı ildə oxu bacarıqları 2011-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 462 baldan 472 bala yüksəlib və ya 10 bal artıb.

Azərbaycanda məktəbəqədər təhsil səviyyəsinin inkişafı istiqamətində mühüm addımlar atılır. Son üç ildə 5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb göstəricisi 24 faizdən 75 faizə kimi artırılıb.

Ölkəmizdəki mərkəzləşdirilmiş imtahan modelinin yüksək səviyyədə şəffaflıq və rəqabət əldə etməsi baxımından həlledici rolu olub.

Milli tədris proqramları gələcək əmək bazarının ehtiyaclarını ödəmək, öyrənənlərin fərdi rifahına və xoşbəxtliyinə nail olmağa xidmət edir. Bu məqsəd üçün qiymətləndirmə siyasəti əsas aparıcıdır.

Təhsil sistemini dünyada baş verən sürətli dəyişikliklərə uyğunlaşdırmaq əsas istiqamətlərdən biri olmalıdır.

İnanıram ki, konfrans hamımızın bu sahədə ən yaxşı təcrübələrimizi bölüşmək və qarşılaşdığımız ümumi problemləri müzakirə etmək üçün bir platforma olacaq.

Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev bildirib ki, konfransın gündəmində duran məsələlər, o cümlədən qiymətləndirmə proseslərində texnologiyaların rolu, imtahan proseslərinə aid psixoloji tədqiqatlar artırılması, təhsildə müəllimlərin yeri universitetlərin gündəlik işinə bilavasitə təsir edir.

Rektor vurğulayıb ki, təhsildə şəffaf və etibarlı qiymətləndirmə prosesinin inkişafı üçün Azərbaycan mühüm irəliləyişlər əldə edib - sovet dönəmindən qalan subyektiv və qərəzli qiymətləndirmə bilik və qabiliyyətləri aydınlaşdıran imtahan sistemi ilə əvəz olunub. Məhz bunun nəticəsində ölkədə həm universitetlərin keyfiyyəti, həm də onların məzun etdiyi insan kapitalının səviyyəsi müvafiq şəkildə qalxıb.

ADA Universitetinin təcrübəsi ilə bölüşən Hafiz Paşayev deyib ki, rəhbərlik etdiyi ali təhsil ocağı ölkədə bakalavr proqramlarına qəbulda beynəlxalq SAT imtahanının nəticələrini nəzərə alan ilk universitet idi. SAT nəticələri ADA-nın ərizə qəbulu prosesində tələb olunan digər sənədlər və daxili müsahibə mərhələsinin nəticələri ilə birgə nəzərə alınır. Hazırda bu təcrübədən ölkənin digər universitetlərində də istifadə olunur.

Hafiz Paşayev diqqətə çatdırıb ki, ADA Universiteti davamlı olaraq Dövlət İmtahan Mərkəzi ilə işləyərək ölkədə imtahan sisteminin təkmilləşdirilməsi üçün yeni yollar və üslublar üzərində çalışır. Buna misal kimi, imtahanlar zamanı istifadə olunan sualların abituriyentlərin məntiqi və tənqidi düşüncə tərzini yoxlamağa istiqamətləndirildiyini göstərmək olar. Beləliklə, tələbələr əzbərçilikdən uzaqlaşaraq, təhlil və tənqid kimi vacib qabiliyyətləri inkişaf etdirirlər.




Bundan əlavə, ADA Universiteti ölkədə ilk dəfə olaraq orta məktəbin əhəmiyyətini vurğulamaq məqsədilə pilot layihəsi çərçivəsində ali təhsilə qəbul imtahanlarını orta təhsildən məzun imtahanlarının nəticələri ilə birləşdirdi. Belə ki, bu ildən fəaliyyətə başlayan ADA Məktəbinin məzunları ADA Universitetinin bakalavr pilləsinə məktəbin yekun daxili orta bal qiymətləndirmə sistemi (Cumulative Grade Point Average) əsasında qəbul olunacaqlar. Hafiz Paşayev bu yeniliyin də ölkənin təhsil sisteminə müsbət meyillər gətirəcəyinə inandığını dedi və bildirdi ki, ADA Universiteti dataya əsaslanan təhlil nəticəsində qəbul prosesini daha da təkmilləşdirmək üçün Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıqda humanitar və texniki elmlər üzrə bilikləri qiymətləndirəcək vahid imtahanın institusional həlli yollarını axtaracaq. Bu da məktəbliləri əlavə müəllimlə məşğul olmaq zərurətindən azad edəcək.

Orta məktəb mühitinin vacibliyini diqqətə çatdıran rektor Hafiz Paşayev vurğuladı ki, sinif mühiti tək şagirdlərə bilik və bacarıq vermək üçün deyil, həm də vətəndaş hazırlayan mühit kimi labüddür.

ADA Universitetinin rektoru konfrans müzakirələrinin nəticələrinin dünyanın hər yerində təhsilin keyfiyyətinin qaldırılmasına xidmət edəcəyinə inamını bildirib.

Açılış mərasimində Kolumbiya Universitetindən (ABŞ) Amra Sabik-El Rayessin videomüraciəti təqdim olunub. Müraciətdə Amra Sabik-El Rayess 2018-ci ildə ABŞ dövlət departamenti və Azərbaycan Təhsil Nazirliyi tərəfindən ölkəmizə işə dəvət edildiyini xatırlayaraq deyib: "Bu, Azərbaycanın təhsil sistemi, onun imkanları və qarşılaşdığı çətinliklərini öyrənməyim üçün böyük fürsət oldu. Uzun illər araşdırdığım sistemlərdən fərqli olaraq, Azərbaycan təhsilin testlə yoxlanılması sahəsində nəzərəçarpan addımlar atıb və digər ölkələr bundan nümunə götürə bilər. Dövlət İmtahan Mərkəzi (DİM) publik hüquqi şəxs kimi Azərbaycanda təhsil sahəsində standartlaşdırılmış test imtahanlarının keçirilməsinə məsuliyyət daşıyır və təhsildə hərəkətliliyə ictimai inamın yenidən qurulmasında aparıcı rol oynayır. Azərbaycana gələndə verdiyim ilk sual DİM-in bunu necə etməsi haqqında olmuşdu. Cavab isə belə idi: DİM subyektiv təsiri minimuma endirmək üçün texnologiyanın tətbiqindən geniş istifadə edir. DİM, eyni zamanda, "Educational Testing Services", UNESKO və digər beynəlxalq qurumlarla əməkdaşlığı genişləndirib. Bu, Azərbaycan tələbələrinin DİM tərəfindən aparılan test imtahanlarının legitimliyinə olan inamının bərpasına kömək edib. DİM ali təhsildə test üsulunun obyektivliyi və şəffaflığının təkmilləşdirilməsi ilə yanaşı, 2012-ci ildən bəri orta məktəblərdə buraxılış imtahanlarını da standartlaşdırılmış test üsulu üzrə keçirməyə başlayıb. Sizə maraqlı ola bilər ki, onları işlərini genişləndirməyə nə vadar etdi? 2012-ci ilə qədər məktəblərdə ilk sıralarda olan şagirdlər ali məktəblərə qəbul imtahanlarında heç də həmişə yüksək nəticə göstərmirdilər. İlk baxışdan orta məktəblərdə test üsullu qiymətləndirmənin tətbiqi bir qədər subyektiv görünə bilərdi. Ancaq DİM buraxılış imtahanlarını keçirməyə başlayandan sonra şagirdlərin həmin imtahanlardakı nəticələri ali məktəblərə qəbul imtahanlarında göstərdikləri nəticələrlə uyğunluq təşkil etməyə başladı. Bəlkə də ən mühüm məqam odur ki, DİM-in təcrübəsi və faktlara əsaslanan yanaşma tətbiq etməsi, əksəriyyət tərəfindən etibarlı və obyektiv hesab edilməyən standartlaşdırılmış test imtahanlarına ictimai etimadın bərpa olunmasını sürətləndirib. Bu isə öz növbəsində, illər keçdikcə qəbul imtahanlarında iştirak etmək üçün müraciətlərin sayının artmasına, eləcə də kənd yerlərində aztəminatlı və məcburi köçkün ailələrindən olan şagirdlərin ali təhsil alması istiqamətində geniş imkanlara yol açıb. Standartlaşdırılmış test imtahanına ictimai inamın bərpa olunması ilə test imtahanlarına hazırlıq sənayesi yaranıb və bu, Azərbaycan müəllimlərinin iş imkanlarını genişləndirib.

Burada Azərbaycanla bağlı ən mühüm məsələ isə budur: DİM tənqidi siyasi iradənin istənilən növ məntiqli transformasiyada necə mühüm rol oynadığını bizə öz gördüyü işlərlə sübut etdi.

Azərbaycanın inkişaf yolu təhsildə ruhlandırıcı və transformasiyalı tarixçələrin mövcud olduğunu bizə öyrədir. Azərbaycanın standartlaşdırılmış test təcrübələrinin transformasiyasında əldə etdiyi uğurun şahidi olduqca ümid edirəm ki, ölkə millətin təhsili və iqtisadiyyat arasında daha geniş əlaqəni uğurla inkişaf etdirəcək".

Konfransda Böyük Britaniyanın Durham Universitetinin professoru Piter Tims "İlkin qiymətləndirmənin üstünlüyü: ibtidai təhsildə potensialın və inkişafın ölçülməsi" mövzusunda əsas məruzə ilə çıxış edib. O, məruzəsində ilkin təhsildə bilik və bacarıqların səmərəli qiymətləndirilməsini təşkil etməyin zəruriliyini bildirib. Qeyd edib ki, təhsil proqramlarını indikindən daha qətiyyətli şəkildə tərtib etməklə fərdi problemlər yaranmamışdan əvvəl onları müəyyənləşdirib aradan qaldırmaq mümkün olar. Növbəti il ikinci bir qiymətləndirmənin aparılması daha ciddi şəkildə tələbələrin xüsusi ehtiyaclarının müəyyən edilməsinə, onların il ərzində şagird, məktəb və ölkə səviyyəsində hesab, oxu, sosial və fiziki inkişaf sahələri üzrə inkişaf səviyyələrini ölçməyə kömək edəcək. Yetərli səviyyədə olmayan TİMSS (Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramı) və PİSA (Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı) kimi təhsil nailiyyətlərinin qiymətləndirilməsi tədqiqatlarına güvənməkdənsə, ilkin qiymətləndirmənin düzgün aparılması bütün təhsil sistemlərinin təsirinin dəyərləndirilməsi üçün təməl rolunu oynayacaq.

Piter Timsin fikrincə, dünyada təhsil sahəsində yüzlərlə ilkin qiymətləndirmənin fəaliyyət göstərdiyi bir dönəmdə niyə bu sahədə böyük irəliləyişləri görmədiyimizi aydınlaşdırmaq ağlabatandır. Cavab isə budur ki, qarşılaşdığımız çağırışlar son dərəcə ciddidir. Bunların sırasında bir neçə əsas olan aşağıdakılardır; uşaqların diqqət yayınıqlığı (qısa konsentrasiyası dövrü), onların çoxunun ilkin təhsilə başlayarkən oxuya və yaza bilməməsi, müvafiq məktəbəqədər tədris planının olmaması, cavabdehlik üzrə testin mənfi nəticələri və uşaqların bilik və bacarıqlarının ibtidai təhsil üzrə ekspertlər tərəfindən dəyərləndirilməsinə qarşı geniş yayılmış narazılıq.

Bu yaşda qısa, lakin daha əhatəli qiymətləndirmə aparılmalıdır. Bu qiymətləndirməni aparan şəxsin kimliyindən asılı olmayaraq prosesin eyni nəticələri olmalı, həm də müxtəlif dillər və mədəniyyətlərlə müqayisə edilə bilən olmalıdır. Həmin qiymətləndirmə prosesi müəllimlərin də rəğbətini qazanmalıdır. Bu məqsədə tam nail olunmasa belə, bu qiymətləndirmə nəyin üzərində çalışmalı olduğumuzu nümayiş etdirir.

Piter Tims irəli sürdüyü fikirləri konkret nümunələrlə əsaslandırıb.

Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik beynəlxalq konfransı sessiyalarla davam edib.

Konfrans çərçivəsində "İbtidai təhsildə test", "Dilin qiymətləndirilməsi", "Qiymətləndirmə sistemləri", "Sinif qiymətləndirməsi", "Qiymətləndirmə fəlsəfələri" mövzularında sessiyalar keçirilib.

Sessiyalarda çıxış edənlər mövzularla bağlı apardıqları araşdırmalardan və təmsil etdikləri ölkələrin təcrübəsindən danışıblar.

Niderlandın Cito təhsilin ölçülməsi institutundan Frans Kleintjes təlim nəticələrini artırmaq üçün şagirdlərin monitorinq sisteminin Kürasaoda tətbiqindən danışıb.

Dövlət İmtahan Mərkəzinin əməkdaşları Məhəmməd Adıgözəlov və İlahə Gülalıyeva "5-6 yaşlı uşaqların intellektual inkişaf səviyyəsini müəyyənləşdirmək üçün testin hazırlanması" mövzusunda çıxış ediblər. Qeyd olunub ki, praktik psixoloqlar üçün metodik ədəbiyyatın əksəriyyətində çox vaxt düzgün sınaqdan keçirilməmiş alətlər yer alır. Digər tərəfdən, bəzi mütəxəssislər və məktəblər uşaqlara diaqnoz qoymaq üçün xarici norma və standartları tətbiq edirlər.

**(davamı 5-ci səhifədə)**

# “İki sahil” qəzeti Neftçilər Gününə həsr olunmuş xüsusi buraxılış hazırlayıb

**Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, iqtisadi qüdrətinin artmasında, dünya iqtisadi sisteminə inteqrasiyasında və dünya birliyində layiqli yer tutmasında əhəmiyyətli rol oynayan, tarixə “Əsrin müqaviləsi” kimi daxil olan neft sazişinin imzalanmasından 25 il keçir. “İki sahil” qəzetinin Neftçilər Gününə həsr olunmuş 80 səhifəlik xüsusi buraxılışında Azərbaycan neft-qaz sənayesinin 25 ildə keçdiyi inkişaf yolunun təhlili aparılıb, ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurla həyata keçirilməsinə davamlı töhfələr verən SOCAR-ın və onun strukturlarının gördüyü işləri əks etdirən maraqlı yazılar dərc edilib, rəngli şəkillər və yüksək poliqrafik tərtibat xüsusi diqqət çəkir.**




Neft strategiyasının uğurla həyata keçirilməsində neftçilərin əməyi dövlətimiz tərəfindən hər zaman yüksək dəyərləndirilib. Məhz ulu öndər Heydər Əliyevin 16 avqust 2001-ci il tarixli Fərmanı ilə Neftçilər Gününün təsis edilməsi, hər il 20 sentyabr ərəfəsində neçə-neçə qabaqcıl neftçinin yüksək dövlət mükafatları ilə təltif edilməsi cəmiyyətimizin avanqard qüvvəsi olan neftçilərin əməyinə verilən qiymətin, onlara göstərilən diqqətin bariz nümunəsidir. Xüsusi buraxılışda dövlət başçısı İlham Əliyevin 19 sentyabr 2019-cu il tarixli müvafiq sərəncamları yer alıb. Eyni zamanda, “Əsrin müqaviləsi”nin uğurları rəqəmlərin dili ilə təqdim edilib.

Xüsusi buraxılışda neft və qaz sənayesinin inkişafında xüsusi xidmətləri olan şəxslərin SOCAR-ın “Fəxri neftçi” döş nişanı ilə təltif edilməsi də öz əksini tapıb.

SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevin “Əsrin müqaviləsi Ulu Öndərimizin şah əsəri, bugünkü və gələcək inkişafımızın təməl daşıdır” sərlövhəli yazısında qeyd olunur ki, “Əsrin müqaviləsi”nin icrası prosesi bizim üçün 25 il ərzində alışdığımız adi həyat tərzi və fəaliyyətimizin obyektiv inikasıdırsa, tarixi baxımdan uzunmüddətli perspektiv və gələcəyə nəzər saldıqda bu hadisə Azərbaycanın inkişaf və yüksəliş yolunda əsas dönüş nöqtəsi olmuşdur. Ötən 25 ildə qazandığımız uğurların bəhrələri xalqımızın gündəlik həyatında, məişətində, maddi rifah halında bariz şəkildə hiss olunur. Görülən titanik işlər öz həcminə və əhəmiyyətinə görə olduqca möhtəşəm və heyrətamizdir. Yazıda o da qeyd edilir ki, dövlətimizin başçısı İlham Əliyev “Əsrin müqaviləsi”nin tarixi əhəmiyyətini vurğulayarkən onu “uğurlu inkişafımızın əsas mənbəyi” adlandırır.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin “Əsrə bərabər 25 il” yazısında müqavilənin imzalanmasına qədər keçilən yoldan, aparılan danışıqlardan, həmçinin “Əsrin müqaviləsi”nin iqtisadi və siyasi əhəmiyyətindən geniş bəhs olunur. Müqavilənin imzalanmasının heç də asan başa gəlmədiyini qeyd edən akademik bildirir ki, ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra digər sahələr kimi, neft sənayesinin bərpası və inkişafı ilə də məşğul olmağa başladı. Yazıda “Əsrin müqaviləsi”nin Azərbaycan üçün iqtisadi və siyasi əhəmiyyəti xüsusi qeyd edilir. Vurğulanır ki, müqavilə bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Müqavilənin iqtisadi əhəmiyyəti isə ondan ibarətdir ki, neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən, 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatıb.

Xüsusi buraxılışı vərəqlədikcə SOCAR-ın ayrı-ayrı sahələrdə tətbiq etdiyi yeniliklər, təcrübələr, qazandığı uğurlar ətraflı şəkildə ictimaiyyətə çatdırılır. Çoxsaylı məqalələrdə Neftçilər Günü ilə bağlı son bir ildə görülən işlərin qısa hesabatı və növbəti ilin hədəfləri açıqlanır.

Xüsusi buraxılışın son səhifəsində əksini tapan ümummilli lider Heydər Əliyevin “Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün xalqımızın yaxşı yaşaması üçün ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir” fikri malik olduğumuz təbii resurslardan səmərəli istifadənin ölkəmizə qazandırdığı uğurlara və onların fonunda perspektivlərə bələdçilik edir.

**AZƏRTAC**

# Bakıda Səudiyyə Ərəbistanının milli bayramı qeyd edilib






**Sentyabrın 23-də Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Krallıq elan olunması günü münasibətilə rəsmi qəbul təşkil edib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri Haməd bin Abdullah bin Səud bin Xudeyr çıxış edib. Ölkəsinin Azərbaycanla əlaqələri möhkəmləndirmək kursunu gələcəkdə də davam etdirəcəyini bildirən səfir vurğulayıb ki, 1932-ci ildə Krallığın birləşməsindən sonra Səudiyyə Ərəbistanı sürətli inkişaf yolu keçib. Bu il milli bayram “Zirvəyədək əzmkarlıq” şüarı altında qeyd olunur.

Səfir deyib ki, Səudiyyə Ərəbistanı Azərbaycanın müstəqilliyini ilk olaraq tanıyan ölkələrdən biridir. Bu gün ölkələrimiz arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Əməkdaşlığın gücləndirilməsində qarşılıqlı səfərlərin mühüm rolunu vurğulayan səfir Azərbaycanın Baş Naziri Novruz Məmmədovun Krallığa səfərini, ölkəsinin Ədliyyə nazirinin Azərbaycana səfərlərini xatırladıb. O qeyd edib ki, bu səfərlər zamanı iki ölkənin maraqlarına uyğun saziş və memorandumlar imzalanıb.

Daha sonra Maliyyə naziri Samir Şərifov çıxış edərək Azərbaycan Hökumətinin və Prezidentinin Səudiyyə Ərəbistanı xalqına səmimi təbriklərini çatdırıb. Nazir bildirib ki, iki ölkə arasında qardaşlıq əlaqələri qarşılıqlı hörmət və İslam irsinə söykənir, xalqlarımız bir-birinə tarixi, dini və mədəni köklərlə bağlıdır. Keçirilən yüksək səviyyəli mühüm görüşlər ölkələrimizin siyasi-iqtisadi əlaqələrinin genişlənməsinə təkan verib. İndiyədək Azərbaycan ilə Krallıq arasında 20 sənəd imzalanıb və hazırda 8 sənəd üzrə danışıqlar gedir.

S.Şərifov qeyd edib ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir. “Səudiyyə Ərəbistanı Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyini dəstəkləyir, işğalçı Ermənistanla əlaqələr qurmaqdan imtina edir. Azərbaycan Səudiyyə Ərəbistanının bu prinsipial mövqeyini yüksək qiymətləndirir”, - deyə nazir vurğulayıb.

**AZƏRTAC**

# Türkiyədə yaşayan soydaşlarımızla görüş




Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun rəhbərliyi ilə keçirilən tədbirdə Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, İstanbulda fəaliyyət göstərən Türkiyə-Azərbaycan dərnəklərinin rəhbərləri, ictimai, elm və incəsənət xadimləri ve media nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Fuad Muradov müzakirə olunacaq məsələlərlə bağlı geniş məlumat verib. Komitə sədri Azərbaycan Demokratik Respublikasının yaranmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevin göstərişinə əsasən dünyada keçirilən tədbirlər, Azərbaycanın diaspor siyasəti və fəaliyyət istiqamətləri, bu istiqamətlərdə atılan konkret addımlar, xaricdə yaşayan azərbaycanlıların şəbəkələşməsi, müasir onlayn platformalarda birləşərək daha mütəşəkkil fəaliyyətə nail olmaq haqqında məlumat verib. Komitə sədri görüş çərçivəsində Türkiyədə yaşayan azərbaycanlıları narahat edən məsələlərin həlli istiqamətində zəruri addımların atılacağını da deyib. Diaspor Komitəsinin yaxın gələcəkdə Türkiyədə reallaşdıracağı layihələr haqqında məlumat verən F.Muradov həmvətənlərimizin bu layihələrin həyata keçirilməsində fəallığının zəruriliyinə diqqət çəkib.

Toplantıda çıxış edən Türkiyə Böyük Millət Məclisinin üzvü Şamil Ayrım, Azərbaycan-Türkiyə münasibətlərinin dünya dövlətləri üçün bir nümunə olduğunu bildirib. Ölkələrimiz arasındakı yüksək səviyyəli əməkdaşlığı qeyd edən Ş.Ayrım Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu münasibətlərə xüsusi dəyər verməsi və onların inkişaf etdirilməsi istiqamətində əvəzsiz xidmətləri barədə danışıb. Ş.Ayrım Prezident İlham Əliyevin qərarı ilə Türkiyə vətəndaşlarına tətbiq olunan viza sisteminin ləğvinin iki qardaş ölkə adına alqışa layiq addım kimi qiymətləndirib.

Tədbirdə Türkiyənin bəzi bölgələrində yaşayan ermənilərin vaxtaşırı məsuliyyətsiz bəyanatlarla çıxışlarına qarşı Azərbaycan diasporunun, eləcə də bütün türk dünyasının davamlı və sistemli fəaliyyətinin təşkili ilə bağlı müzakirələr aparılıb.

Sonra Azərbaycan Diasporuna Dəstək Fondunun iş prinsipləri haqqında məlumat verilib, fondun təqdimatı ilə bağlı videoçarx nümayiş etdirilib.

Tədbir çərçivəsində ilk Azərbaycan Demokratik Respublikasının qurucularının varislərinə “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” medalı təqdim edilib, Türkiyədə yaşayan həmvətənlərimizin çıxışları dinlənilib, onları narahat edən problemlər ətrafında fikir mübadiləsi aparılıb.

**Esmira YAZKAN,**
**“Respublika” qəzetinin Türkiyə müxbiri.**

# “Zağlı-Zeyvə” yatağı ərazisində səmt qazının yığılması məqsədilə yeni kompressor stansiyası istifadəyə verilib



**Sentyabrın 23-də Siyəzəndə, SOCAR-ın əməliyyatçı olduğu “Zağlı-Zeyvə” yatağı ərazisində səmt qazının yığılması məqsədilə quraşdırılmış kompressor stansiyasının açılışı olub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, kompressor stansiyası SOCAR və BMT İnkişaf Proqramının (BMT İP) Azərbaycan nümayəndəliyi tərəfindən birgə həyata keçirilən “Azərbaycanın yanacaq istehlakı sektorunda karbon emissiyalarının azaldılmasını təmin edən Milli Fəaliyyət Planları” (NAMA) layihəsi çərçivəsində inşa edilib.

Açılış mərasimində SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, BMT İP-nin Azərbaycan ofisinin rəhbəri Alessandro Frakassetti və SOCAR-ın ekologiya üzrə vitse-prezidenti, layihənin rəhbəri Rəfiqə Hüseynzadə iştirak ediblər.

Spesifik vəzifəsi SOCAR-ın İqlim Dəyişikliyinin Təsirlərinin Azaldılması Strategiyasını dəstəkləməkdən ibarət olan NAMA layihəsinin 3-cü komponenti çərçivəsində SOCAR-ın “Siyəzənneft” neft və qazçıxarma idarəsinin (NQÇİ) “Zağlı-Zeyvə” yatağı pilot ərazi olaraq seçilib və burada səmt qazının yığılması məqsədilə birgə işlər görülüb. Ərazidəki 3 qaz yığım məntəqəsində yeni kompressor və separator avadanlıqları, soyuducu sistemlər və onlayn nəzarət sistemi quraşdırılıb, 32 kilometrlik əsas qaz boru xətti çəkilib. İki il ərzində davam etmiş layihənin icrası nəticəsində ildə 6,8 milyon kubmetr səmt qazının yığılması planlaşdırılır. Layihənin başlıca özəlliyi yığılacaq səmt qazının emal olunduqdan sonra əhalinin istehlakına yönəldilməsidir. Beləliklə, 15 ətraf kənd üzrə 1250 abonentin təbii qazla təchizatı təmin olunacaq.

NAMA layihəsi SOCAR və BMT İP tərəfindən 2015-ci ildən həyata keçirilir. Layihə ölkədə enerjiyə qənaət edən və karbon emissiyası aşağı olan texnologiyaları dəstəkləyir. 2013-cü ildən başlayaraq, SOCAR hər il birgə müəssisələrində və digər əməliyyatçı şirkətlərdə atmosferə atılan çirkləndirici qazların ümumi miqdarının hesablanmasını həyata keçirir.

**AZƏRTAC**



# Yeni qurğular xam neftdən səmt qazını yığmağa və onu Siyəzənin 15 kəndində istehlakçılara çatdırmağa kömək edəcək

**Birləşmiş Millətlər Təşkilatının (BMT) dəstəyi ilə 6 kompressor, 6 seperator və 3 soyuducu qurğu quraşdırılıb. Bu, ekoloji layihədir. BMT-nin İnkişaf Proqramı ilə SOCAR arasındakı müqavilədə 3 komponent iştirak edir. Bu komponentlərdən birincisi enerji səmərəliliyidir ki, biz bunu “Azərkimya” İstehsalat Birliyində quraşdırmışıq. İkinci komponent enerji səmərəliliyi olan nəqliyyat vasitələrindən istifadədir. Bununla əlaqədar BMT tərəfindən bizə hibrid maşınlar, simulyator qurğusu verilib. Müqavilənin son mərhələsində isə havaya buraxılan alçaqtəzyiqli qazları toplayıb əhalinin istifadəsinə vermək öz əksini tapır.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə SOCAR-ın ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə Siyəzəndəki neft yataqlarında səmt qazını ayırmaq üçün quraşdırılan kompressorlar və ayırma qurğularının işə salınması mərasimində bildirib.

Rəfiqə Hüseynzadə jurnalistlərə müsahibəsində deyib ki, qurğular BMT tərəfindən quraşdırılıb, 32 kilometr məsafədə borunun çəkilməsi isə SOCAR tərəfindən həyata keçirilib. “Ümumilikdə 3 stansiya qurulub və ay ərzində 583 min kubmetr qaz yığılacaq. Bu kompressorlar işə salındığı gündən 2-3 kəndə qazın verilməsinə də başlanılacaq. Yeni kompressorlar və ayırma qurğuları xam neftdən səmt qazını yığmağa və onu Siyəzənin 15 kəndində istehlakçılara çatdırmağa kömək edəcək. 600-dən çox ailənin 1250 nəfər üzvü bu proqramdan yararlanacaq” - deyə, Rəfiqə Hüseynzadə söyləyib.

**AZƏRTAC**

# 27 abituriyent tələbə adını qazandı





Aşıqlar yurdu, söz-sənət diyarı olan Nərimanlı kəndi Qərbi Azərbaycanda, ulu Göyçədə qədim yaşayış məskəni kimi tanınırdı. XIV əsrdən bu yana bu kəndin ilkin adı “Hüseynquluağalı” deyimi ilə tarixə düşmüş, 1924-cü ildən 1988-ci ilədək kənd görkəmli dövlət xadimi Nəriman Nərimanovun adını daşımışdır. Erməni daşnakları XX əsrin ikinci yarısında Nərimanlı kəndinin adının dəyişdirilməsinə cəhd göstərsə də, 50-ci illərdə bu kəndin yetirməsi, rayon partiya komitəsinin birinci katibi Talıb Musayevin ciddi səyi nəticəsində ermənilərin bu planı alt-üst edilmiş, onların arzusu reallığa çevrilməmişdir.

Nərimanlı kəndi el arasında Göyçənin akademiyası kimi məşhurlaşmışdı. Bu, heç də səbəbsiz deyildi. Bu kənddə yetişən alimlərin, ziyalıların, görkəmli el aşıqlarının sayı yetərincə idi. Folklorşünas alimlər, ali məktəb tələbələri tez-tez bu kənddə olardı.

Nərimanlı kəndi Səfiyar Musayev, akademik Nuru Bayramov, Maqsud Cəlilov, Qurban Bayramov, Rasim Məmmədov, Abbas Bağırov kimi alimlər yetişdirmiş, kəndin yetişdirmələrindən Zərbalı Qurbanov Amasiya rayon partiya komitəsinin birinci katibi vəzifəsinə yüksəlmiş, son illərdə “Sovet Ermənistanı” qəzetinin redaktoru işləmiş, zəhmət adamı Gülnaz Heydərova SSRİ Ali Sovetinin deputatı olmuş, el aşıqlarından İslam Yusifov, Xəstə Bayraməli, Bəhmən Qarayev bu kənddə dünyaya göz açmışdır.

Bir sözlə, Nərimanlı kəndində yetişən alimlərin, müxtəlif sahələrdə sidq ürəklə çalışan ziyalıların sayı yetərincə idi.

Orta məktəb məzunlarının demək olar ki, əksəriyyəti Azərbaycanın ali məktəblərinə daxil olur, öz istedadları ilə fərqlənirdilər.

Artıq 30 ildən çoxdur ki, ulu Göyçə erməni əsarətindədir. Nərimanlı məktəbi, bu məşhurlaşmış təhsil ocağı ancaq xatirələrdə yaşayır. Kənd sakinləri, yurd həsrəti ilə qovrula-qovrula yeganə təsəllini onda tapırlar ki, keçmiş dövrdə olduğu kimi, indiki dövrdə də valideynləri Nərimanlıdan olan gənclər kəndin şöhrətini qoruyub saxlayır, fitri istedadları ilə ali məktəblərə daxil olurlar.

Qürur hissi ilə vurğulamaq lazımdır ki, əslən Nərimanlı kəndindən olan gənclər əvvəlki illərdə olduğu kimi təhsildə yenə də öndə gedir, yüksək balla Azərbaycanın müxtəlif ali məktəblərinə daxil olurlar.

Nərimanlılar ənənələrinə sadiq qalaraq 2019-cu ildə yenə də layiqli nəticələrə imza atmış, məzunlardan 27 nəfəri ölkəmizin müxtəlif ali məktəblərinə daxil olmuşlar. Onlardan 2 nəfəri Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul edilmişdir. Türkiyənin ali məktəblərinə daxil olanlar da var.

Akademik Nuru Bayramov və tibb üzrə fəlsəfə doktoru Abbas Bağırovun təşəbbüsü ilə bu günlərdə əslən Nərimanlıdan olan bu il yüksək balla müxtəlif ali məktəblərə daxil olan tələbələrlə görüş keçirildi. Tədbirdə valideynlər, gənclər və qonaqlar iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan görkəmli alim, Nərimanlı kəndinin yetirməsi Abbas Bağırov vurğuladı ki, Basarkeçər (Vardenis) rayonundakı Nərimanlı kəndinin 40-a qədər alimi, 200-dən artıq həkimi, 250-yə yaxın müəllimi, 170 polis işçisi, 25 polkovniki, 3 deputatı, 1 nəfər əməkdar jurnalisti, bir Milli Qəhrəmanı olmuşdur. Hər bir Nərimanlı sakininin qəlbi Göyçə həsrəti ilə döyünür, qürbətdə qalan kəndin adını şərəflə qoruyub saxlayırlar.

Valideynləri Göyçənin Nərimanlı kəndindən olan gənclərdən bu il 27 nəfəri tələbə adını qazandı. Əlbəttə, bu sevindirici rəqəmdir. Bu gənclər Göyçəni görməsələr də yaxşı bilirlər ki, onların ata və babaları Nərimanlıdandır. Bu gənclər ümidlə yaşayır, düşünürlər ki, günlərin bir günündə köç karvanları geri dönəcək, yurd həsrətli insanlar Göyçə gölünü salamlayacaq, Nərimanlı kəndində çal-çağırlı günlər başlanacaqdır.

Tədbirdə AMEA-nın müxbir üzvü Nuru Bayramov, müəllim Vaqif Musayev, ehtiyatda olan polkovnik Asim Bayramov, Şirazi İbrahimov, alim Şahin Bayramov, Şahlar Hacıyev, valideynlərindən polis mayoru Bəkir Aslanov, Koroğlu Qasımov, ali məktəblərə qəbul olan gənclərdən tenis üzrə Avropa çempionu Nəzakət Qarayeva, Becan Qasımov və başqaları çıxış etdilər.

Sonda ali məktəblərə qəbul olunan gənclərə diplom və hədiyyələr təqdim olundu və xatirə şəkilləri çəkdirildi.

**Qədir ASLAN,**
**“Respublika”.**

# AzTU-nun rektoru I kurs tələbələrilə görüşdü




**Azərbaycan Texniki Universitetinin (AzTU) rektoru professor Vilayət Vəliyevin sentyabrın 23-də ölkənin aparıcı ali texniki təhsil ocağının birinci kurs tələbələri ilə görüşü keçirilib.**

Yenicə tələbə adını qazanan gəncləri təbrik edən rektor Texniki Universiteti digər ali məktəblərdən fərqli edən cəhətlərə diqqəti cəlb edib, tələbələrə olan tələb və gözləntilərini qeyd edib. AzTU-nun təcrübəli professor-müəllim heyətinə malik olmasından, tələbə-müəllim münasibətlərindən, yeni tədris ilində ciddi dəyişikliklərin hədəflədiyindən danışan professor V.Vəliyev keçmişi araxda buraxaraq gələcəkdə daha böyük hədəflərə nail olmağa çağırıb, yaşadığımız elmi-texnoloji inqilablar dövründə müasir təhsil üsullarına keçməyin vaxtı çatdığını bildirib.

Tələbələri fəal olmağa çağıran, "zəif, kəsirli tələbə bizə yad olmalıdır" deyən rektor şəffaf münasibətləri vacib saydığını, tələbələrin yanında olacağını, onlara hərtərəfli dəstək verəcəyini vurğulayıb: "Mən sizin dostunuz olacağam!".

Professor V.Vəliyevin sözlərinə əsasən, AzTU Elmi Şurasının oktyabrın 2-də keçiriləcək iclasında Texniki Universitetin fəaliyyəti və gələcək inkişafı üçün önəmli məsələlər müzakirə ediləcək və mühüm addımlar atılacaq.

Görüşdə AzTU rektoru tələbələri maraqlandıran və narahat edən sualları cavablandırıb, onlara bir daha uğurlar arzulayıb.

Əli SADIQOV,
"Respublika".

# Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf naminə Genişzolaqlı Komissiyasının illik iclasında təmsil edilib

**Nyu-Yorkda BMT-nin Dayanıqlı İnkişaf naminə Genişzolaqlı Komissiyasının illik iclası keçirilib. İclasda Azərbaycanı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə, nazirin birinci müavini Əli Abdullayev və nazirliyin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Şahin İsmayılov təmsil edib.**

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə dünyada dördüncü sənaye inqilabı, genişzolaqlı internet üzrə bağlantının təkmilləşdirilməsi, informasiya-kommunikasiya texnologiyaları sahəsində tənzimləmə mexanizmlərinin araşdırılması, inkişaf etməkdə olan ölkələrdə rəqəmsal iqtisadiyyatın inkişafı məsələləri müzakirə olunub. Eyni zamanda, iclas zamanı 2030 - Dayanıqlı İnkişafa dair Gündəliyin yeni məqsədlərinin qəbul edilməsi müzakirə mövzusu olub.

Qeyd edək ki, komissiyanın iclası ənənəvi olaraq BMT-nin Baş Assambleyasından bir gün öncə Nyu-Yorkda "Yale Klubu"nda baş tutur.

AZƏRTAC

# Nyu-Yorkda Azərbaycan və Niderland Xarici İşlər nazirlərinin görüşü olub

**BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov Niderland Krallığının Xarici İşlər naziri Stef Blok ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında ikitərəfli əməkdaşlıq münasibətlərin hazırkı durumu və əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

Nazirlər regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin hazırkı vəziyyəti ilə bağlı qarşı tərəfə məlumat verib və regional dayanıqlı sülh və təhlükəsizliyin təmin olunması baxımından münaqişənin beynəlxalq hüququn norma və prinsipləri və BMT TŞ-nin məlum qətnamələri əsasında həllinin vacibliyini qeyd edib.

Görüş əsnasında qarşılıqlı maraq doğuran regional və qlobal məsələlər ətrafında müzakirələr aparılıb.

AZƏRTAC

# Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşüb

**Xarici İşlər naziri Elmar Məmmədyarovun Nyu-Yorkda ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü keçirilib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar, eləcə də münaqişə zonasındakı vəziyyət və ümumilikdə, münaqişənin tənzimlənməsi üzrə həmsədrlərin gələcək fəaliyyət planları və perspektivləri müzakirə edilib.

AZƏRTAC

## *Sosial həyat*

### "Gənclərin Məşğulluğu" proqramına müraciət edən şəxslərin işlə təmin olunmasına başlanılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti və Azərbaycan Respublikası Gənclər Fondunun birgə layihəsi olan "Gənclərin Məşğulluğu" proqramına müraciət edən şəxslərin işlə təmin olunmasına başlanılıb. Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, aprel ayından start verilən proqrama ilkin mərhələdə 614 nəfər gənc cəlb edilib.

Layihə çərçivəsində ali və orta ixtisas təhsili müəssisələrinin 29 yaşına qədər olan məzunları işə cəlb olunurlar və müəyyən müddət ərzində onların əməkhaqlarının bir qismi Fond tərəfindən maliyyələşdirilir. Proqramın icrası zamanı sosial cəhətdən həssas kateqoriyalardan (əlilliyi olan şəxslər, şəhid ailəsinin üzvləri, məcburi köçkünlər və s.) olanlar, regionlarda yaşayanlar, iş təcrübəsi olmayanlara üstünlük verilir. Namizədlərin seçimi işəgötürənlər tərəfindən aparılır. Layihənin icrası prosesi ilboyu davam edəcək, vakansiyalar mütəmadi olaraq yenilənəcək. Məqsəd gənclərin uğurlu karyera planlaşdırmasına (ixtisas üzrə iş tapmaq), əlavə iş (xüsusilə də regionlarda) yerlərinin yaradılmasına, iş üçün müraciət edən gəncin ilk iş təcrübəsi qazanmasına, əmək bazarında rəqabətin artırılmasına dəstək verməkdir.

### İşəgötürənlərin iştirakı ilə tədbir keçirilib

İşəgötürən tərəfindən Əmək Məcəlləsi ilə yaşı 18-dən az olan işçilər üçün müəyyən edilmiş təminatlara əməl olunması məcburidir. Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu barədə Dövlət Əmək Müfəttişliyi Xidmətinin Lənkəran rayonunda "Uşaq əməyinin istismarının qarşısının alınması" və "Qeyri-rəsmi məşğulluğun qarşısının alınması" mövzularında keçirdiyi maarifləndirici tədbirdə vurğulanıb.

Tədbirdə bildirilib ki, yaşı 18-dən az olan işçilərlə əmək müqaviləsi bağlayarkən onların əmək və peşə vərdişlərinin artırılması üçün işəgötürən tərəfindən təmin edilməli olan əlavə şərtlər, öhdəliklər nəzərə tutulmalıdır. Yaşı 18-dən az olan işçilərin iş günü ərzində peşə hazırlığına sərf etdikləri vaxt işəgötürənin razılığı ilə iş vaxtı kimi nəzərə alınır.

Tədbirdə uşaq əməyinin istismarı və məcburi əməyə cəlbetmə hallarına qarşı mübarizə, əmək münasibətləri sahəsində uşaq hüquqları barədə iştirakçılara geniş məlumatlar verilib. "Qeyri-rəsmi məşğulluğun qarşısının alınması" mövzusunda da bəhs olunub. Əmək münasibətlərinə daxil olan hər bir şəxslə ilk növbədə əmək müqaviləsi bağlamağın vacibliyi, əmək müqaviləsinin işçinin əmək və sosial təminat hüquqları üçün əsas yaratdığı diqqətə çatdırılıb.

Mustafa KAMAL,
"Respublika".

# Azərbaycan-Argentina münasibətlərinə dair müzakirələr aparılıb

**Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Nyu-York şəhərində BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Argentinanın Xarici İşlər və Etiqad naziri Xorxe Fori ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Argentina arasında əlaqələrin cari vəziyyətindən razılıq ifadə olunub. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, gündəlikdə duran məsələlər barədə fikir mübadiləsi aparılıb. Nazirlər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsi məsələlərini müzakirə ediblər.

Tərəflər, həmçinin iki ölkə arasında həyata keçirilən yüksək səviyyəli rəsmilərin qarşılıqlı səfərlərinin münasibətlərin inkişaf etdirilməsi baxımından önəmini vurğulayıblar. Nazir Elmar Məmmədyarov Qoşulmama Hərəkatının bu ilin 25-26 oktyabr tarixlərində Bakıda keçiriləcək Zirvə görüşündə Argentina nümayəndə heyətinin iştirakının məmnuniyyət doğuracağını həmkarının diqqətinə çatdırıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

AZƏRTAC

# "SƏHRA SAVAŞI" ROMANI NƏŞR OLUNUB




**Bu günlərdə yazıçı-ədəbiyyatşünas Vaqif Sultanlının "Səhra savaşı" ("Struggle in the desert") romanı Böyük Britaniyada nəşr olunmuşdur. Londonun "Rossendale books" nəşriyyatında yayımlanan kitabı ingilis dilinə Cavid Abbaslı çevirmişdir. Roman yazıçı-tərcüməçi Vinsent Valşın redaktəsi ilə nəşr edilmişdir.**

Qeyd edək ki, bu müəllifin ingilis oxucularına təqdim olunan ilk kitabı deyildir. Belə ki, son illərdə yazıçının roman, povest və hekayələr toplusundan ibarət ayrı-ayrı kitabları İngiltərə, Kanada, Amerika və Danimarkada nəşr olunmuş, habelə onun tərtibatında (Dr. İrəc İsmayilla birlikdə) "Müasir Azərbaycan nəsri" (2012, 2019) və "Müasir Azərbaycan qadın nəsri" antologiyaları (2014) ingilisdilli oxuculara təqdim edilmişdir.

Şərti-metaforik üslubda qələmə alınmış "Səhra savaşı" romanında təsvir olunan hadisələr zamanın çatlaması ilə gələcəkdən imtina edərək keçmişə üz tutan qəhrəmanın taleyi fonunda aşkarlanır. Hadisələrin bu müstəvidə çözümü müəllifə insan, zaman və dünya haqqında fəlsəfi düşüncələrini əks etdirməyə imkan vermişdir.

Yazıçının əvvəlki yazılarından yalnız məzmunca deyil, həmçinin forma-sənətkarlıq baxımından seçilən "Səhra savaşı" çağdaş dünyaya hakim olan özgələşmə, yaddaşsızlaşma, biganələşmə, gərəksizləşmə kimi mənəvi çöküş və humanitar deformasiya probleminə etiraz ruhu ilə diqqəti çəkir. Süjeti fəlsəfi-mifoloji düşüncədən qaynaqlanan romanın bədii üslubu mürəkkəb təhkiyə hörüyü ilə müşayiət olunan hadisə və epizodlarla şərtlənir.

Kitabı amazon.com saytından sifariş yolu ilə əldə etmək olar.

"Səhra savaşı" romanı Türkiyə və Rusiyada da nəşrə hazırlanır.

"Respublika".

# Los-Anceles səmalarında və küçələrində Qarabağ həqiqətləri




**Ermənistanın baş naziri Nikol Paşinyan sentyabrın 22-də Los-Ancelesə səfər edərək ermәni icmasının keçirdiyi mitinqdə çıxış edib. Xatırladaq ki, yarım milyonadək erməninin yaşadığı Los-Anceles vilayəti ABŞ-da ermənilərin ən çox yaşadığı yerdir.**




Bunu nəzərə alaraq, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasəti barədə yerli əhalini geniş şəkildə məlumatlandırmaq üçün həmin gün Los-Anceles səmalarına ingilis dilində böyük hərflərlə "Karabakh is Azerbaijan! End the Occupation" (Qarabağ Azərbaycanındır! İşğala Son Qoy!) şüarını daşıyan təyyarələr qaldırılıb. Bütün günü Los-Anceles üzərində dövrə vuran şüar yerli əhali tərəfindən böyük maraqla qarşılanıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan məlumat verilib.

Bundan əlavə, üzərində Qarabağ həqiqətlərini əks etdirən rəqəmsal plakatların olduğu xüsusi maşınlar gün ərzində Los-Ancelesin ən müxtəlif guşələrini dolaşaraq, böyük sayda şəhər sakinini Ermənistanın işğalçılıq siyasəti barədə məlumatlandırıb. Plakatlarda Azərbaycanın 20 faiz ərazisinin işğal olunduğu, 1 milyonadək soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi, işğal altında olan ərazilərimizdə Azərbaycan mədəniyyətinə qarşı soyqırımı həyata keçirildiyi, Xocalı soyqırımı və digər məsələlər barədə məlumat verilib.

Qeyd edək ki, Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev səfər ərəfəsində Los-Anceles şəhər və vilayət rəhbərliyinə Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirən bir ölkənin baş nazirinin səfərinə etiraz edən məktublar göndərib. Həmçinin N.Paşinyanın Los-Ancelesə səfəri ABŞ mətbuatında da tənqid olunub. Belə ki, ABŞ-ın ən böyük yəhudi qəzeti olan, Los-Ancelesdə nəşr edilən "Jewish Journal" qəzetində, həmçinin "NewzBlaze" qəzetində müvafiq məqalələr dərc olunub. Məqalələrdə Ermənistanın öz qonşusuna qarşı işğalçılıq siyasəti həyata keçirən kriminal bir dövlət olduğu, beynəlxalq hüququ kobud şəkildə pozmaqda davam etdiyi, Ermənistanda nasist generalların milli qəhrəman elan olunduğu, antisemitizmin geniş yayıldığı qeyd olunaraq, belə bir ölkənin baş nazirinin Los-Ancelesdə qəbul olunmasının qeyri-məqbul olduğu bildirilib. Məqalələr sosial şəbəkələrdə geniş yayılaraq, sadə amerikalılar tərəfindən N.Paşinyanın səfərinin kəskin tənqidinə səbəb olub.

AZƏRTAC

# Bakıda keçirilən bədii gimnastika üzrə 37-ci dünya çempionatının təntənəli bağlanış mərasimi olub

**Bakıda keçirilən bədii gimnastika üzrə 37-ci dünya çempionatının sentyabrın 22-də təntənəli bağlanış mərasimi olub.**





AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan, Ukrayna və Bolqarıstanın qrup hərəkətləri komandaları, həmçinin gimnastımız Veronika Qudis kompozisiyalarını təqdim ediblər.

Tədbirdə rəqqaslarımızın və nağaraçıların şousu tamaşaçıların böyük coşqusu ilə qarşılanıb.

On dörd ildən sonra ölkəmizin bədii gimnastika üzrə dünya çempionatına yüksək səviyyədə ev sahibliyi etdiyini bildirən Azərbaycan Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov deyib: "Yüksək rəqabət şəraitində keçən çempionatda gimnastların maraqlı çıxışlarını izlədik. "Tokio 2020" Yay Olimpiya Oyunları öncəsi Bakıda təşkil olunan lisenziya xarakterli dünya çempionatı böyük önəm daşıyırdı. Artıq idmançıların həyəcanı geridə qaldı. Dünya çempionatı cari il ölkəmizdə gimnastika üzrə keçirilən sonuncu beynəlxalq turnir idi. Növbəti irimiqyaslı yarışlarda görüşənədək".




Beynəlxalq Gimnastika Federasiyasının (FİG) prezidenti Morinari Vatanabe deyib: "Nağıllar - hətta ən yaxşıları belə bitməlidir. Bir həftəlik yarışlardan sonra nağıl kitabımızı bağlamağın vaxtıdır. Bütün gimnastları gözəl çıxışlarına görə təbrik edirəm. Nağıl bəzi gimnastlar üçün "Tokio 2020" Yay Olimpiya Oyunlarında davam edəcək".

Yüksək təşkilatçılığa görə minnətdarlığını ifadə edən M.Vatanabe deyib: "Azərbaycan Gimnastika Federasiyasının və dünya çempionatının yerli Təşkilat Komitəsinin üzvlərinə yüksək səviyyəli təşkilatçılığa görə minnətdarlığımı bildirirəm. Həmçinin gələcək nəslə gimnastika məşəlini ötürməyə kömək edən dünya çempionatının rəsmi səfiri Yana Batırşinaya da təşəkkürümü çatdırıram. Növbəti il Olimpiya Oyunlarının möcüzəsini yaşadan daha bir nağılı dinləmək üçün hamınızı Tokioda yenidən görməyə şad olarıq".

Sonra M.Vatanabe bədii gimnastika üzrə 37-ci dünya çempionatını bağlı elan edib.

Gənc gimnastımız Ceyla Əlizadə FİG-in bayrağını İ.İsmayılova təqdim edib. Gənclər və İdman nazirinin müavini bayrağı M.Vatanabeyə verib. FİG-in prezidenti isə bayrağı dəfələrlə Avropa və dünya çempionu olan, "Atlanta 1996" Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Y.Batırşinaya ötürüb.

Sonda dünya çempionatının ulduz səfiri, Azərbaycanın sevilən müğənnisi, Əməkdar artist Miri Yusif məhz bu yarış üçün xüsusi yazılmış "Birinci ol" mahnısını ifa edib.

"Nağıllar gerçəkləşəcək" devizi altında təşkil olunan dünya çempionatında 61 ölkədən 300-dən artıq gimnast iştirak edib. Gimnastlar çempionatda 9 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan gimnastı Z.Ağamirova və qrup hərəkətləri komandamız çoxnövçülük yarışlarında "Tokio 2020" vəsiqə qazanıblar.

AZƏRTAC

# Bakıda IAEA 2019 beynəlxalq konfransının açılış mərasimi keçirilib

(əvvəli 2-ci səhifədə)

Diqqətə çatdırılıb ki, tədqiqat zamanı mövcud zəka testləri nəzəri və metodoloji təhlil edilib, məktəbdə uşaqların psixoloji problemlərinə aydınlıq gətirilməyə çalışılıb. Araşdırma zamanı məktəb yaşı çatmamış uşaqların zehni inkişafının ümumi qəbul edilmiş quruluşundan, intellektual inkişaf səviyyəsinin hərtərəfli diaqnozu üçün metodologiyadan, valideynlər və müəllimlər üçün ayrıca anketlərdən istifadə edilib, sosial-psixoloji amillər nəzərə alınıb.

“Dil biliklərinin qiymətləndirilməsi” sessiyasında qiymətləndirmədə və rəqəmsal savadda istifadə olunan dilin araşdırılması, qlobal miqyasda ingilis dili və Çin dili standartlarının müqayisəli təhlili istiqamətində müzakirələr aparılıb. Həmçinin sessiyada Kembric Qiymətləndirmə departamentindən Daniel Broker və Dövlət İmtahan Mərkəzindən Vəli Hüseyn “Qiymətləndirmə və qərar qəbulu: ingilis dilinin qiymətləndirilməsi üzrə Kembric və Azərbaycan arasında bilik mübadiləsi və əməkdaşlıq” mövzusunda təqdimat ediblər.

“Qiymətləndirmə sistemləri” sessiyasında Dövlət İmtahan Mərkəzinin əməkdaşı Pərviz Kazımov “Fərdi, institusional və ümummilli qərar qəbulu üçün inteqrasiya olunmuş qiymətləndirmə sistemi ilə əldə edilən məlumatlardan səmərəli istifadə yolları” mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, Dövlət İmtahan Mərkəzi orta məktəblərin buraxılış imtahanları, universitetlərə qəbul, habelə dövlət qulluğuna namizədlərin seçimi daxil olmaqla kompleks qiymətləndirmə sistemini idarə edir. Qurumun fəaliyyətinin ilk mərhələlərində mərkəzləşdirilmiş imtahan sisteminin yeganə məqsədi universitetlər üçün tələbələrin qərəzsiz seçilməsini təmin etmək olsa da, sonradan fərdi və institusional qərar qəbulu üçün nəhəng məlumat istehsalı platformasına çevrilərək texniki və tədqiqat potensialını artırıb. Platforma namizədlər və təşkilatlar daxil olmaqla bütün maraqlı tərəflərin tələblərini uyğunlaşdırmaq üçün hazırlanıb. Çeviklik, texnologiyaya əsaslanan dizayn və elmi yanaşma, sistemin fasiləsiz və bəzən fərdi və institusional potensialın artırılmasına yönəlmiş müsbət dəyişikliklərin və yeniliklərin hərəkətverici qüvvəsi kimi çıxış etməsinə imkan verir.

Dövlət İmtahan Mərkəzi tərəfindən idarə olunan mütəxəssislər və müəllimlər şəbəkəsi müxtəlif qiymətləndirmə vasitələrini inkişaf etdirir, təhsil müəssisələrinin, dövlət qurumlarının və şəxslərin xüsusi tələblərinə uyğun olaraq qiymətləndirmə prosedurlarını idarə edir. 2016-cı ildən Dövlət İmtahan Mərkəzi dövlət qulluğuna namizədlərin seçilməsini idarə etməyə başlayıb. Bu, ali təhsil səviyyəsində qiymətləndirmənin təsdiqlənməsi və universitet təhsilinin real karyera tələbləri ilə uzlaşdırılması üçün yeni perspektiv açır.

“Sinif qiymətləndirməsi” sessiyasında Azərbaycan Müəllim İnkişaf Mərkəzinin direktor müavini Xədicə Cəfərova “Sinif qiymətləndirmələrindən istifadə etməklə tədris haqqında əsaslandırılmış qərar qəbulu” mövzusunda çıxış edib. Diqqətə çatdırılıb ki, yeni qiymətləndirmə sistemini mənimsəmək və



faydalarını artırmaq üçün dəqiq konsepsiya hazırlanmalıdır. Bu səbəbdən sinif qiymətləndirmələrinə konseptual səviyyədə baxır və tədris praktikasının təkmilləşdirilməsi məqsədilə qərar verməklə rolunu təhlil edir. Beləliklə, diaqnostik və formativ qiymətləndirmələrə dinamik baxılır (məlumatların toplanması, təfsiri və bundan sonra nə ediləcəyi barədə qərar); summativ qiymətləndirməyə statik baxılır (tələbənin akademik fəaliyyətinin vahid, dövlət standartları və s. baxımından qiymətləndirilməsi).

“Qiymətləndirmə fəlsəfələri” sessiyasında toxunulan problemlərdən biri “IQ testlərində məntiq sualları nə qədər məntiqlidir?” mövzusu olub. Bu barədə çıxış edən ADA Universitetindən Yaqub Əliyev sualların determinist (bilik və bacarıqlar əsasında həll edilə bilən) və ehtimal olunan (şansın olması ilə həll edilə bilən) növlərinə diqqəti çəkib. Bildirib ki, şans elementləri olan məntiq suallarından qəbul və ya buraxılış imtahanlarında, işə qəbul testlərində istifadə etmək düzgün deyil.

Günün davamında “Qiymətləndirmənin yoxlanılması sistemləri”, “Qiymətləndirmənin tərtib olunması”, “İbtidai təhsildə test”, “Müəllimlərin sertifikasiyası”, “Qərar qəbuletmə” mövzularında sessiyalar keçirilib.

Bakı Avropa Liseyinin direktoru Zülfiyyə Veysova “Müəllim standartları rubrikaları əsasında müəllim peşə inkişafının müəyyənləşdirilməsi” mövzusunda məruzə edib. O, 2014-2015-ci illərdə Azərbaycanda ilk dəfə olaraq müəllim standartları hazırlandığını xatırladıb. Diqqətə çatdırıb ki, hər alt standartlarla əlaqəli rubrikalar müəllimlərə peşəkar inkişafını dörd səviyyəyə görə qiymətləndirməyə imkan verir: az təcrübəli, təcrübəli, peşəkar və lider. Rubrikalardan istifadə edərək müəllimlər karyera pillələrində təcrübələrini qiymətləndirmək və həmkarlarından rəy almaq üçün əsas sahələri müəyyən edə bildilər. Tədqiqat göstərdi ki, hazırlanmış rubrikalardan həm müəllimin peşə səviyyəsini qiymətləndirmək, həm də peşəkar inkişaf ehtiyaclarını müəyyən etmək, müəllimin məktəb rəhbərliyi və ya hökumət tərəfindən dəstəklənə biləcəyi ən vacib sahələri aydınlaşdırmaq üçün istifadə edilə bilər.

Sessiyalarda “Dəyişən məlumatlar: qiymətləndirmələrin qiymətləndirilməsi üçün çərçivə”, Avtomatik qiymətləndirmə sisteminin necə dəyərləndirmək olar?”, “İmtahan keyfiyyətinin təmin olunmasına dair RCEC təşkilatının dəyərləndirmə sistemi”, “Yüksək səviyyə üçün çoxmərhələli testin hazırlanması və inkişafı”, “PISA 2021 və ondan kənarda: yaradıcı düşüncə üçün innovativ təlim və qiymətləndirmə həllərinin dizaynı və inkişafı”, “Oxu üzrə birinci sinif skrininq testi üçün predmetlər hazırlanması: baza testi”, “Kompüterləşdirilmiş ssenari əsaslı qiymətləndirmədə fərqli test kontekstinin rolu” və digər mövzularda məruzələr dinlənilib.

Konfransın işıqlandırılmasında AZƏRTAC Dövlət İmtahan Mərkəzinin rəsmi media tərəfdaşıdır. IAEA-nın üzvü olan Dövlət İmtahan Mərkəzi bu təşkilatın keçirdiyi tədbirlərdə mütəmadi iştirak edir. IAEA 1975-ci ildən başlayaraq hər il bu cür konfranslar keçirir. Azərbaycan hələ 2007-ci ildə MDB ölkələri arasında IAEA tərəfindən belə bir konfrans keçirilən ilk ölkə olub.

IAEA 2019 beynəlxalq konfransı sentyabrın 27-dək davam edəcək.

**AZƏRTAC**

*Pərviz Kazımov:*

## Təhsildə qiymətləndirmə sahəsində dünyanın tanınmış mütəxəssisləri Bakıya toplaşıblar

**IAEA genişmiqyaslı beynəlxalq konfransdır. İkinci dəfədir ki, Bakı bu konfransa ev sahibliyi edir. Təhsildə qiymətləndirmə sahəsində dünyanın tanınmış mütəxəssisləri Bakıya toplaşıblar. Onlarla fikir mübadiləsi aparmaq, təqdimatlarını dinləmək dünyadakı yeni tendensiyalarla tanış olmağımıza imkan yaradacaq.**

Bu fikirləri AZƏRTAC-a IAEA 2019-un “Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları” mövzusuna həsr olunan 45-ci illik konfransının iştirakçısı Pərviz Kazımov deyib. O bildirib ki, Azərbaycanın təhsildə mərkəzləşdirilmiş qiymətləndirmə sistemi dünyanın aparıcı ölkələrinin analoji sistemləri ilə bir sırada dayanır Azərbaycan öz təcrübələrini digər ölkələrlə bölüşür.

“Konfransdan gözləntilərimiz çoxdur. İlk növbədə, dünyada aparıcı yer tutan ən qabaqcıl təcrübəni, təhsildə qiymətləndirmədə istifadə olunan metodları, alətləri öyrənməyə, onların tətbiq olunmasında incəlikləri mənimsəməyə çalışacağıq. Azərbaycan təhsil sistemində tətbiq olunan qiymətləndirmə meyarları dünya standartlarına tam uyğundur. Amma fərqli yanaşmalarla tanış olaraq, onları dünya mütəxəssisləri ilə bir yerdə müzakirə edərək yeni nəticələr əldə edəcəyimizə əminəm”, - deyə Pərviz Kazımov qeyd edib.

Xatırladaq ki, IAEA ümumi və ali təhsil müəssisələrində, müxtəlif təşkilatlarda və iş yerlərində təhsilin qiymətləndirilməsində iştirak edən qurumlar üçün yaradılmış qlobal forumdur. IAEA hər il təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılması və bu sahədə ki, biliyin qiymətləndirilməsi sahəsində dövlətlərarası əməkdaşlığın qurulması, bu istiqamətdə təcrübə mübadiləsinin aparılması, yeni qiymətləndirmə metodlarının tətbiqi məqsədilə yaradılmış IAEA ilə sıx əməkdaşlıq edir. 2007-ci ildə IAEA-nın 33-cü illik konfransı DİM-in təşkilatçılığı ilə MDB və Şərqi Avropa dövlətləri arasında ilk dəfə Azərbaycanda keçirilib.

Dövlət İmtahan Mərkəzi IAEA 2019-un yerli və xarici mediada geniş işıqlandırılması üçün Azərbaycan Dövlət İnformasiya Agentliyini (AZƏRTAC) rəsmi media tərəfdaşı seçib.

**AZƏRTAC**

# AZƏRBAYCAN MEMARLIQ TARİXİ

## (DÜŞÜNCƏLƏR)

Bəşəriyyət üçüncü minilliyə qədəm qoyub. Bu minillik cəmiyyəti milli və bəşəri imtahanlara çəkir, bizdən daha qlobal və daha dərin elmi axtarışlar aparmağı tələb edir. Artıq ilk illərdən görünür ki, üçüncü minillik elm və mədəniyyətlər erası olacaq və millətlərarası münasibətlər hərb və iqtisadi güc ilə deyil, milli-mədəni dəyərlərlə ölçüləcək. Bu sırada hər bir millətin milli-mədəni inkişafında memarlığın xüsusi yeri var. Elə bu baxımdan da insanlıq tarixini daş yaddaşında qoruyaraq minilliklər boyu nəsildən-nəslə ötürən Azərbaycan memarlıq irsinin keçdiyi inkişaf yoluna bir daha nəzər salınmasına ehtiyac duyuruq.

Memarlıq sənəti və onun inkişafı, cəmiyyətin iqtisadi gücü, siyasi quruluşu və eləcə də onun mədəniyyət və incəsənəti ilə sıx bağlı olmuşdur. Burada xalqın mütərəqqi adət-ənənəsi, milli özəlliyi, yerli iqlim şəraiti və təbii sərvəti əsas amil kimi qəbul olunur. Bu baxımdan Azərbaycan diyarı ta qədimdən, əlverişli iqlim şəraitinə, bol təbii sərvətinə və ərazisindən keçən ticarət yollarının beynəlxalq əhəmiyyətinə görə nəinki Qafqazda, hətta bütün Şərqdə məşhur olub.

Tarix göstərir ki, Azərbaycanın Kür-Araz vadisi ilk insan məskənləri və qədim dünya mədəniyyətinin ilk ocağı və beşiyi olmuşdur. Azıx və Tağlar mağarasından aşkar edilmiş maddi mədəniyyət abidələrinin tarixi 1,5 milyon il öncəki zamana söykənir. Bununla yanaşı, araşdırmalar göstərir ki, dünyanın bir çox ölkəsindən fərqli olaraq, Azərbaycanda yaşamış insanların yaratdığı memarlıq tarix boyu bir neçə dini ideologiyanın təsiri altına düşmüşdür. Buna səbəb ölkə vilayətlərində atəşpərəstlik, bütpərəstlik, xristian və islam dininin yayılması və onların müvafiq mərkəzlərinin olması idi. Lakin İslam dininin daha geniş yayılması və hakim ideologiyaya çevrilməsi sayəsində Azərbaycan memarlığına təsir edən digər dini ideologiyalara son qoyuldu. Doğrudur, bu zamanlar memarlığın inkişafında müəyyən durğunluq yarandı, lakin IX əsrdən başlayaraq inkişaf etdi. Bir sözlə, İslam dini Azərbaycan milli memarlığının inkişafında və istiqamətində əsaslı dönüş yaratdı. Bu baxımdan o dövr üçün Azərbaycan memarlığında yeni sayılan məscid və mədrəsə tipli binaların kütləvi inşası memarlıq və şəhərsalmada yeni inkişaf xəttinin müəyyənləşməsi üçün böyük rol oynadı. Məsələ ondadır ki, hər bir şəhərdə tikilən camelər (məscidlər) təkcə ibadət üçün deyil, onlar həm də sosial və siyasi məsələlərin həlli üçün çoxtutumlu bina rolunu oynadı. Ona görə də belə binaların konstruksiya möhkəmliyinə və bədii görünüşünün zənginliyinə xüsusi fikir verildi. Digər tərəfdən, məscid və mədrəsələr şəhərsalmada dominant və düyün rolunu oynadı. Bütün bunlara baxmayaraq İslamda canlılar surətini çəkmək yasaq olduğu üçün abidələr üzərindəki bədii memarlıq elementlərinin motivlərini nəbati və həndəsi ornamentlər təşkil etdi. Hətta bəzi abidələr üzərindəki ornamentlər ərəb əlifbası ilə yazılmış Quran ayələri və kitabələrlə daha da zənginləşdi. Bu siyasət bir tərəfdən İslam ideologiyasının memarlıq vasitəsi ilə təbliği idi, digər tərəfdən islamaqədərki ənənəvi memarlıqdan imtina etmək məqsədi güdürdü. Ancaq araşdırmalar göstərir ki, bu heç də belə olmadı. Yəni İslam ideologiyası hakim mövqedə dursa da, öncəki dini memarlığın bədii və konstruktiv özəlliyi öz dəyərini itirmədi. Belə ki, atəşpərəstlik və xristianlıq dövrünə məxsus olan günbəz və tağbənd tipli örtük konstruksiyaların ornament və svastikaların İslam dövrünə məxsus olan abidələr üzərində sintezi yarandı və paralel inkişaf etdi. Nəticədə orta əsrlərdən başlayaraq Azərbaycan əyalətlərində — Arran, Şirvan, Marağa-Naxçıvan və Qəzvin-Həmədan adı ilə məşhurlaşan regional memarlıq məktəbləri yarandı. Bakı, Şamaxı, Dərbənd, Qəbələ, Bərdə, Gəncə, Beyləqan, Şəki, Marağa, Naxçıvan, Təbriz, Qəzvin, Həmədan, və s. qədim şəhərlər həmin memarlıq məktəblərinin müvafiq mərkəzlərinə çevrildi.

Bəzi orta əsr Arran şəhərlərinin (Qəbələ, Bərdə, Gəncə) ilkin yaranma mərhələsi eradan əvvəlki dövrlərdən başlanır. Bu baxımdan Qəbələ haqda yazılı məlumata məşhur Roma alimi Pliniyin “Təbii tarix” əsərində rast gəlinir. Müəllif həmin əsərdə Qəbələni “Kabalaka” kimi qeyd edərək Albaniyanın (Arranın) baş şəhəri adlandırır.

Qəbələdə aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş müxtəlif maddi mədəniyyət abidələri sübut edir ki, şəhər e.ə. IV əsrin sonu və III əsrin əvvəllərində yaranmış və XVIII əsrə kimi mövcud olmuşdur. Lakin müxtəlif səbəblərdən bir neçə dəfə dağılmışdı. Şəhərin ən qədim hissəsi e.ə. IV əsrdən b.e. I əsrin sonuna qədər Qara-



Möminəxatun türbəsi

çay və Qoçalançay arasındakı 50 hektarlıq ərazidə yerləşib. Sonra strateji cəhətdən daha möhkəm olan Qaraçay və Covurluçay arasındakı 25 hektarlıq hündür təpəyə köçürülüb. Burada şəhər I əsrin sonundan XVIII əsrədək fəaliyyət göstərmişdi. Şəhər yerləşən ərazi möhtəşəm müdafiə qalaları və süni xəndəklə iki hissəyə bölünmüşdü. Onun şimal hissəsi Səlbir, cənub hissəsi isə Gavur qala adlanmışdı. Qəbələ qalasının müasir zamana qədər gəlib çatmış bürcləri və bina qalıqları, Arran memarlıq məktəbinin üslub özəllikləri və inşaat texnikası haqqında dəyərli məlumatlar verir. Buradakı abidələrdən görünür ki, Arranda təbii resurslar müxtəlif və inşaat materialları çoxçeşidli olmuşdu. Ona görə də buradakı inşaat işlərində tarixən çiy və bişmiş kərpiclə bərabər, ağ lay və çay daşı birgə istifadə edilmişdi. Bu da ilk orta əsrlərdən başlayaraq Albaniyanın müxtəlif regionundakı tikinti texnikasının inkişafına səbəb olmuşdur. Buradakı divar və damların konstruksiyasında əsasən, bazalt, tuf, kərpic, əhəng və çay daşı birgə istifadə edilmişdi. Divar konstruksiyası adətən üç laylı olub. Onun xarici və daxili qatı iri daşlarla hörülmüş, ara məsafəsi xırda daşlarla qarışdırılmış əhəng məhlulu ilə doldurulub. Divarın daxili və xarici səthində istifadə edilən daşlar çox səliqə ilə yonulmuşdu. Qeyd edək ki, burada istifadə edilən inşaat materialının çoxçeşidli olmasına baxmayaraq, onların hər birinin tətbiq edildiyi yer konkret olunub. Məsələn, çay daşı enli və iri divarlarının hörgüsündə, əhəng daşı onun daxili və xarici qatında, kərpic isə tağların, sütunların və digər dekorativ hissələrin inşasında istifadə olunub. Yuxarıda qeyd edilənlərdən görünür ki, Arran memarlıq məktəbi hələ İslamaqədər yüksək memarlıq ənənəsinə malik olmuş və bu ənənədə yerli inşaat materialları müstəsna rol oynamışdır.

Araşdırmalar göstərir ki, Arran memarlıq məktəbinin inkişafında xüsusi yeri olan Bərdə İslamın ilk çağlarında şəhərsalma istiqamətini dəyişsə də, xristian dövr memarlıq ənənələrini hələ də saxlamış və burada ucaldılmış saraylarda, məscid və mədrəsələrdə xristian memarlığına məxsus yarımdairə formalı tağbəndlərdən hələ də istifadə edilmişdi. Belə konstruksiyalara qədim Gəncə şəhərində də rast gəlinib. Lakin Gəncə Şəddadilərin paytaxtına çevriləndən sonra tikintidə çay daşı ilə yanaşı, bişmiş kərpicin birgə istifadəsi meydana çıxdı. Daha doğrusu, çay daşı ilə hörülən divarlar müvafiq qaydada bişmiş kərpiclə haşiyələndi. Bu tip hörgü o zamanlar Alban memarlığında geniş yayılaraq burada məşhur olan Arran memarlıq məktəbinin özəlliyinə çevrildi və Azərbaycan memarlıq tarixinə “Gəncə hörgüsü” kimi daxil oldu. Tədqiqatlar göstərir ki, sonralar bu üsul Gəncənin qonşuluğunda yerləşən Şəmkir və Tiflis şəhərinin tikinti işlərinə də tətbiq edilib. Bu zamanlar Gəncə gözəl və zəngin memarlıq əsərləri olan mədəniyyət mərkəzi kimi bütün Şərqdə tanındı. Lakin belə məşhur şəhər, Təbriz və Şamaxı kimi bir neçə dəfə baş vermiş zəlzələ nəticəsində dağıldı.

Gəncədən fərqli olaraq Beyləqanın timsalında Arran memarlıq məktəbinin tamamilə başqa inşaat keyfiyyətləri diqqəti cəlb edir. Arxeoloqların fikrincə, öncə burada “Örənqala”, “Ərən qala” və “Arran qala” adlı yaşayış məskəni olmuşdur. Lakin VI əsrdə Sasanilər vahid plan əsasında Beyləqan şəhərini yenidən inşa etmişlər. Tarixi mənbələrə görə, Sasanilərin Beyləqan şəhərini (qalasını) burada inşa etməkdə məqsədləri həm də şimaldakı qarnizonları ilə əlaqəni möhkəmlətmək və Qafqaz ilə İranı birləşdirən beynəlxalq ticarət yoluna nəzarəti gücləndirtmək idi.

Arxeoloji qazıntılar nəticəsində aşkar olmuş şəhərin qala divarlarına əsasən onun baş planı hazırlanıb. Bu planda şəhər üç hissədən — İç qala, Şəhəristan və Rabatdan ibarətdir. Baş plandan göründüyü kimi, Beyləqan da Gəncə və Bərdə şəhərləri kimi, düzənlik sahədə salındığı üçün onun da şəhərsalma planı düzbucaqlı həll edilmişdi. Bu forma şəhərin hər üç hissəsinin plan quruluşunda saxlanmışdı. Şəhərin baş küçəsi şimali-qərbdən, cənub-şərqə doğru uzanaraq onu iki hissəyə ayırıb və həmin küçə hər iki başdan qala qapıları ilə məhdudlaşıb. Arxeoloji qazıntı zamanı Beyləqanın qala divarından aralı böyük bir sahədə (4500 kv. metr) ictimai binalar kompleksinin qalıqları və minarə özülü aşkar edilib. Abidə-kompleksinə daxil olan minarə qalığını əsas götürən bəzi memarlar buranın məhz dini məqsəd üçün inşa olunmasın iddia edib və tikilmə dövrünü XII-XIII yüzilliklə bağlayır. Lakin nəzərə alsaq ki, Sasanilər Beyləqan şəhərini məhz burada inşa etməklə həm də karvan yollarına nəzarət etmək məqsədi güdürdü, onda həmin “Mil minarə”dən (sonralar həmin minarə belə adlanmış) həm də “göz” (gözətçi) bürcü kimi istifadə edildiyi istisna deyil. Yeri gəlmişkən onu da qeyd edək ki, Arran memarlığı üçün xarakterik olan belə bir minarə Şəmkir şəhəri yaxınlığında inşa olunmuş və “Şəmkir minarəsi” kimi memarlıq tarixinə düşmüşdü. Təəssüf ki, “Mil minarə” kimi Şəmkir minarəsi də dövrümüzə qədər gəlib çatmamışdı. Hər iki minarənin bu və ya digər oxşar cəhətlərinə əsaslanaraq güman etmək olar ki, onların hər ikisi XII əsrdə yaşayıb yaratmış bir arranlı memar tərəfindən inşa edilmişdi.

Bərdə, Gəncə, Beyləqan və Qarabağın digər ərazisindəki abidələr üzərində aparılan elmi araşdırmaların müqayisəli təhlili göstərir ki, Arran memarlıq məktəbi ilə Marağa-Naxçıvan memarlıq məktəbi arasında sıx bağlılıq olmuşdu. Bu hal ən çox kərpiclə inşa olunmuş dini abidələr timsalında daha qabarıq şəkildə görünür. Hətta bütövlükdə daşla tikilən bəzi qəbirüstü abidələr də Marağa-Naxçıvan memarlıq məktəbinin ideyasını davam etdirir. Bu hala ən çox Qarabağın Arazbar zonasındakı abidələr (Şeyx Babı Yaqub, Arqalı, Dəmirçilər, Məmmədbəyli və s.) üzərində rast gəlirik. Bütün bunlar Arran memarlıq məktəbi ilə Marağa-Naxçıvan memarlıq məktəbi arasında olan sənət əlaqəsinin nə qədər möhkəm olmasını bir daha təsdiq edir. Üslub cəhəti ilə o qədər fərqli olmayan Marağa-Naxçıvan memarlıq məktəbinə aid abidələr qrupu əsasən Marağa və Naxçıvan şəhərlərində və onlara qonşu ərazilərdə qalmışdır. Marağadakı göy, qırmızı və dairəvi günbəzlər, Urmidə üç Günbəz, Naxçıvanda Möminə xatun, Yusif Kuseyer oğlu türbələri elə bu qəbildən olan abidələrdir. Bu abidələr timsalında Marağa-Naxçıvan memarlıq məktəbinə xas olan özəlliklər daha qabarıq görünür. Məsələn, mərkəzi dayaq sütunlu sərdabə, gövdənin karkası, divarın üzlük örtüyə ayrılması, hərtərəfli fasadlı olması və onların həndəsi ornamentlərlə örtülməsi bu memarlıq məktəbinin səciyyəvi cəhətdir. Marağa-Naxçıvan memarlıq məktəbinin inkişaf səviyyəsi və onun digər memarlıq məktəbindən fərqlənməsi, buradakı abidələrdə çoxsaylı kitabələrin və onlar üzərində çoxlu sənətkar adlarının olmasıdır. Bunlar marağalı Bəkir Məhəmməd, Əhməd Məhəmməd və Həsən Firuz oğlu, urmiyalı Əbu Mənsur Musa oğlu, mərəndli Əhməd Bəkir oğlu, naxçıvanlı Əmrəddin Məsud oğlu, Əcəmi Əbubəkr oğlu və başqalarıdır. Maraqlıdır ki, həmin kitabələrdəki “Ustad”, “Bənna”, “Memar” titulları yazılmaqla sənətkarların tanınma dərəcəsini bildirilir. Bu da öz növbəsində memar nəslinin aydınlaşması üçün imkan yaradır. Məsələn, Qırmızı Günbəzin kitabəsindən bəlli olur ki, onu tikən Bəkir Məhəmmədin atası Bəndan “bənna”, babası Möhsün isə “memar” titulu daşımışdı.



Şirvanşahlar Saray kompleksi



Şeyx Babı Yaqub türbəsi

XII-XIII əsrlərdə Azərbaycanda Atabəylər dövlətinin inzibati mərkəzi olan Naxçıvan möhkəm qala divarlı, möhtəşəm imarətli, saraylı, məscid və mədrəsəli bir şəhərə çevrilmişdir. Burada Əcəmi Naxçıvani kimi istedadlı sənətkarın olması şəhərin abadlaşması üçün böyük rol oynadı. Onun binaları plan quruluşuna görə sadə, fasadı isə maksimum dərəcədə ornamentlə zəngin olmuş, karnizi stalaktitli qurşaqla tamamlanıb. Araşdırmalar göstərir ki, stalaktitli karnizə malik olan ilk qülləvari türbələr Əcəmi yaradıcılığına məxsus Möminəxatun və Yusif Kuseyir oğlu türbəsi olub və sonralar Türkiyə, İran və Orta Asiya memarlığında istifadə olunub. Hətta məşhur türk memarı Xoca Sinan da Əcəmi yaradıcılığındakı bu özəllikdən bəhrələnərək gözəl memarlıq əsərləri yaratmışdı. Yeri gəlmişkən onu da xatırladaq ki, amerikalı məşhur memar Frenq Loid Rayt deyib ki, “Məndən soruşsalar, dünyanın ən yaxşı memarı kimdir? Düşünmədən deyərdim ki, böyük türk memarı Xoca Sinan, ikinci özümü hesab edirəm”. Görünür Rayt Əcəmi yaradıcılığına bələd deyilmiş, əks təqdirdə yəqin ki, onun haqqında da belə yüksək fikir söyləyərdi.



Səadət sarayı

Əcəmi yaradıcılığı ilə zənginləşmiş Naxçıvan memarlığını hələ XV əsrdə görən məşhur türk alimi və səyyahı Övliya Çələbi Naxçıvanın abad və gözəlliyini xüsusi qeyd etmiş, Həmdullah Qəzvini (1280-1349) onu Nəqşi Cahan (Dünyanın bəzəyi) adlandırmış, XIX əsrdə yaşayıb-yaratmış görkəmli Azərbaycan alimi Məhəmməd Hinduşah isə hətta Təbriz və Bağdaddan sonra Naxçıvan kimi gözəl şəhəri “qulaq eşitmədiyin və göz görmədiyin” böyük iftixarla demişdir.

Araşdırmalar göstərir ki, Azərbaycanın cənub bölgəsi Səlcuqlar (XII əsrdə) dövründə böyük inkişaf həddinə çatmışdı. Bu zaman ölkənin paytaxt şəhəri Həmədana xüsusi diqqət ayrılıb və şəhər mühiti xeyli abadlaşıb. Eyni zamanda, Həmədana yaxın olan Qəzvin və ətraf ərazilər də abadlaşmış və yeni tikinti işləri aparılmışdı. Burada aparılan genişmiqyaslı tikinti işlərinin memarlıq üslubu və özəlliyi tədricən Qəzvin-Həmədan adı ilə məşhurlaşan memarlıq məktəbinin meydana çıxmasına şərait yaratmışdır. Bu məktəbin özəllikləri, kub şəkilli gövdəli və günbəz köşklü məscidləri, zəngin ornamentli və oyma naxışlı gəc mehrabları, fasad dekorunda işıq-kölgə effektinə əsaslanan həndəsi ornamentli kərpic hörgüsü ilə səciyyələnir. Belə səciyyəvi cəhətlər XI-XII əsrlərdə inşa edilmiş Xərrəqan, Vəli və Qoşa İmam türbələri, Qəzvində Xumartaş və Heydəriyyə günbəzləri, Həmədan və Sucas məscidləri timsalında özünü qabarıq göstərir. Konstruktiv və memarlıq baxımdan tipoloji birliyi olan bu abidələr Şirvan memarlıq məktəbinə daxil olan Dərbənd, Şamaxı və Bakının bəzi cümə məscidlərini yada salır.

Şirvan memarlıq məktəbinin əsas bədii özəllik mərkəzi Dərbənd, Şamaxı və Bakı idi. Digərlərindən fərqli olaraq, Şirvan memarlıq məktəbi başqa özəllikləri ilə fərqlənir. Öncə onu qeyd edək ki, Şirvan memarlığında istifadə olunan yerli əhəng daşı çoxtəbəqəli yonulma keyfiyyətinə malikdir. Ona görə də belə daşlar üzərində istənilən ornamentləri relyef şəklində yonmaq mümkündür. Bu daşlardan hətta asanlıqla müxtəlif həndəsi fiqurlar və həcmli heykəllər yonulur. Digər memarlıq məktəbində istifadə edilən yerli inşaat materiallarında isə bu mümkün deyil.

XV əsrdən başlayaraq Şamaxı şəhəri artıq Kiçik Asiya, Suriya, İtaliya, İngiltərə və s. ölkələrdə Şirvan ipəyi ilə yanaşı, həm də Şirvan memarlığı ilə zəngin olan abad şəhər kimi tanınmışdır. Tarixi mənbələrə görə XIII əsrin ortalarında Şamaxıda 7 mədrəsə, 44 karvansara, 70 mehrab, 200-ə qədər dükan, 4 hamam və 7000 ev olmuşdur. Lakin çox təəssüf ki, belə gözəl şəhər 1667-1859-1902-ci illərdə baş vermiş amansız zəlzələlər nəticəsində dəfələrlə dağılmışdır.

Əlverişli limanı və hərbi yürüş yolundan kənarda yerləşməsi baxımından strateji əhəmiyyətə malik olan Bakı qalası, hələ XII əsrdə Şirvanşahların diqqətini cəlb etmiş və onların iqamətgahına çevrilmişdir. Bununla yanaşı, Şirvanşah III Mənuçöhr qala divarlarını yenidən bərpa etdirərək onun möhkəmliyini və əzəmətini daha da artırmışdır. Müasir dövrə qədər gəlib çatmış Dərbənd qalası, dünyada analoqu olmayan “Qız qalası” və İçərişəhərin ən yüksək yerində ucaldılmış Şirvanşahlar memarlıq kompleksi hələ XV əsrdə Şirvan memarlıq məktəbinin yüksəlişindən xəbər verir.

Xatırladaq ki, yuxarıda adları çəkilən regional memarlıq məktəblərinin tərkibində yerli memarlıq məktəbləri də fəaliyyət göstərmişdir. Məsələn, Qarabağ memarlıq məktəbi Arran memarlıq məktəbinin ideyasını davam etmiş və onun tərkibində Əli Məcidəddinin (XIII əsr), Şeyx Bəhaəddinin (XVII əsr) və Kərbəlayi Səfixan Qarabağinin rəhbərlik etdiyi (XIX-XX əsrlər) memarlıq məktəbləri, Şirvan memarlıq məktəbində, Bakı-Abşeron memarlıq məktəbi (XIX-XX əsr), Marağa-Naxçıvanda Əcəmi memarlıq məktəbi.

XIX əsrin sonu və XX əsrin əvvəlləri dövrü Şirvan memarlıq məktəbinin əsas göstəricisi Bakı şəhəri idi. Doğrudur, bu inkişaf bir tərəfdən burada olan neft yataqları ilə bağlı olsa da, digər tərəfdən, Şamaxı zəlzələsindən sonra quberniya mərkəzinin (1859-cu il) Bakıya köçürülməsi və paytaxt şəhərə çevrilməsi ilə izah olunur. Bakı quberniya mərkəzinə çevrilən zaman ətrafında pərakəndə şəkildə olan xırda məhəllələr tədricən ləğv olundu və yeni layihələr əsasında abadlaşdı. Bu işdə Bakının ilk memarı Qasım bəy Hacıbababəyovun (1811-1874) əməyi böyükdür. Onun layihəsi əsasında müxtəlif relyefə malik olan Bakının bayır şəhəri pilləvari şəkildə salındı. Sonra memar Zivər bəy Əhmədbəyov, Hacıbəy Axundov, Məşədi Mirzə Qafar İzmailov da Qasımbəyin layihəsini əldə əsas tutaraq burada gözəl binalar inşa etdilər. Xatırladaq ki, XIX əsrin sonunda Bakı neft sənayesinin inkişafına görə dünyanın ən iri şəhərləri sırasına çıxdı. Bu zamanlar dünya üzrə neftin təqribən yarısından çoxu məhz Abşeronda çıxarılırdı. Burada çıxarılan neft bolluğu Hacı Zeynalabdin Tağıyev, Ağamusa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Ağabala Quliyev, İsabəy Hacınski və Nobellər, Rotşildlər kimi əcnəbi neft maqnatlarının varlanmasına səbəb oldu. Varlı sahibkarlar qazandıqları vəsaiti dəbdəbəli sarayların, villaların və imarətlərin tikintisinə yönəltdi. Bunun üçün onlar inşaata yerlilərlə yanaşı, xarici memarları da cəlb etdilər. Lakin yerli memarlardan fərqli olaraq əcnəbi memarlar bina layihələri hazırlayan zaman öz yerlərinin memarlıq ənənəsindən və xüsusilə Qərbin memarlıq stilindən (Klassik, Qotika, Barokko, Moderni və s.) bolluca istifadə etdilər. Ancaq bir məsələni də nəzərdən qaçırmaq olmaz ki, layihə cızan memarlar əcnəbi olsalar da, binaları bilavasitə öz əlləri ilə tikənlər məhz yerli ustalar olmuşdur. Baş usta Hacı Abbasın, usta Xeyrullanın, Salman və Soltan Atayevlərin, Kərbəlayi Məcidin, Kərbəlayi Sadığın və neçə-neçə digər sənətkarların daşdan yonduğu sənət inciləri uzun illər Bakı binalarının divarlarını bəzəyərək indi də müasir sənət adamlarını heyran edir.

Nəticə etibarilə qeyd edək ki, yerli memarlıq məktəbləri qapalı və məhdud məkanda fəaliyyət göstərsə də, onlar məxsus olduğu regional memarlıq məktəbinin ideya və üslub özəlliyini davam etdirmiş və ümumilikdə bir-biri ilə sıx bağlantı quran Böyük Azərbaycan memarlıq üslubunu və özəlliyini yaratmışlar.

**RİZVAN QARABAĞLI,**
**memarlıq üzrə fəlsəfə doktoru, dosent.**

# Təhsildə uğurlar günbəgün artır



Ölkə iqtisadiyyatının yüksələn xətlə inkişafı təhsilimizin gələcəyi üçün də əlverişli şərait yaratmışdır. Bu sahədə atılan genişmiqyaslı addımlar ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsilin böyük nailiyyətlər əldə etməsinə və nəhayət, Azərbaycan dövlətinin sürətli inkişafında əsaslı baza rolunu oynayır.

Son illərdə Azərbaycan təhsilinin yüksələn xətlə inkişafı ölkəmizin bütün bölgələrində olduğu kimi respublikamızın Şimal-Qərb qapısı sayılan, sosial-iqtisadi baxımdan günbəgün inkişaf edən Balakən rayonunda hər addımda hiss olunur. Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi əvvəlki illərdə olduğu kimi yola saldığımız tədris ilində də öz parlaq nəticələrini vermişdir. Həmsöhbətimiz **Balakən Rayon Təhsil Şöbəsinin müdiri, təcrübəli pedaqoq Vahid Əliyev** bizimlə söhbətində bildirdi ki, Təhsil Şöbəsinin tabeçiliyində 50 tədris müəssisəsi, o cümlədən ümumtəhsil məktəbi və 2 məktəbdənkənar müəssisə fəaliyyət göstərmişdir. Məktəblərdən 35-i tam orta, 9-u ümumi orta və 4-ü ibtidai məktəbdir. Rayonun ümumtəhsil məktəblərində təhsilə cəlb edilmiş 12 min nəfərə yaxın uşaq və gəncin təlim-tərbiyəsi ilə 1630 nəfər pedaqoji işçi məşğul olmuşdur. Onlardan 11 nəfər “Tərəqqi” medalı ilə təltif olunmuş, 6 nəfər “Əməkdar müəllim”, 15 nəfər Qabaqcıl Təhsil İşçisidir. Müəllimlərin 71 faizi ali təhsillidir. Rayon üzrə şagird sıxlığı 14,7, müəllim-şagird nisbəti 1:7,7 olmuşdur. Rayon məktəblərinin 40-da təlim Azərbaycan, 4-də Azərbaycan və rus, 3-də rus, 1-də Azərbaycan və gürcü dillərində aparılmışdır. Rayon üzrə 39 məktəb (81 faiz) birtipli layihə əsasında tikilmiş, 2 məktəb modul tipli quraşdırılmış, 7 məktəb isə uyğunlaşdırılmış binalarda fəaliyyət göstərmişdir. Onlardan 32 məktəb son 12 ildə yeni tikilib, ya da əsaslı təmir olunmuşdur. 5 tam orta məktəb və 2 ümumi orta məktəb köhnə binalarda fəaliyyət göstərmişdir.

Valideynlərin müraciətləri nəzərə alınaraq qəzalı vəziyyətdə olan Gərəkli kənd tam orta məktəbi üçün yeni binanın tikintisini həyata keçirmək məqsədilə smeta-layihə sənədləri hazırlanmış, yaxın vaxtda bu binanın təməli qoyulacaqdır.

Rayonun məktəblərində hazırda 798 ədəd müasir tipli kompüter vardır. 72 kompüter ötən tədris ilində gətirilmişdir. Hazırda rayonun ümumtəhsil məktəblərində təhsil alan hər 16 nəfər şagirdə 1 ədəd müasir tipli kompüter düşür. 2019-2020-ci dərs ili üçün Təhsil Nazirliyindən 217 adda 28474 ədəd dərslik, IV və VIII siniflər üçün yeni nəşr edilmiş dərslik və metodiki vəsaitlər gətirilmişdir.

Məktəblərin hamısında yeni dərs ilinə hazırlıqla bağlı cari təmir işləri aparılmış, qış mövsümünə hazırlıq davam etdirilir. Ötən tədris ilin qış mövsümündə tədris müəssisələrinin qızdırılmasında heç bir problem yaşanmamışdır.

Şagirdlərin təhsilə cəlbini daha da yaxşılaşdırmaq, təhsildən yayınmanın qarşısını almaq məqsədilə yaşayış ərazilərində olan məktəbyaşlı uşaq və gənclərin siyahıları məktəblər üzrə dəqiqləşdirilmiş, onların təhsilə cəlbi təmin olunmuşdur. Təhsil Şöbəsi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Təhsil Nazirliyinə daxil olmuş məktubun tələbinə uyğun olaraq qaraçı mənşəli ailələrdən gələn uşaqların təhsildən yayınma hallarının qarşısını almaq məqsədilə rayon icra hakimiyyətinin və icra hakimiyyətinin yerdəki nümayəndəliklərinin köməkliyi ilə ərazilərdə yaşayan həmin ailələrdən olan məktəbyaşlı uşaqlar dəqiqləşdirilmiş, onları təhsilə cəlb etmək üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir.

Ötən 2018-2019-cu tədris ilində Balakən Rayon Təhsil Şöbəsi və onun tabeçiliyində olan təhsil müəssisələrinin pedaqoji kollektivləri gənc nəslin keyfiyyətli təhsil alması, kamil şəxsiyyət kimi formalaşması sahəsində uğurlu nəticələr əldə etmək üçün səylə çalışmışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin təhsillə bağlı əmr və göstərişlərinin yerinə yetirilməsi diqqətdə saxlanmış, icrası istiqamətində Təhsil Qanunvericiliyinin tələbinə uyğun səmərəli tədbirlər həyata keçirilmişdir. Əsas diqqət “ümumi təhsil sahəsində 2018-2019-cu dərs ilinin prioritet fəaliyyət istiqamətləri barədə” 14.08.2018-ci il tarixli F-550 nömrəli və “Zaqatala, Balakən və Qax rayonlarının ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi vəziyyəti haqqında” əmrin tələblərinin icrası ilə bağlı nəzərdə tutulan məsələlərin yerinə yetirilməsinə yönəldilmişdir.

İstedadlı şagirdləri aşkar etmək və onların istedadlarının daha da artırılmasına köməklik etmək və bu sahədə bir sistem yaratmaq məqsədilə məktəblərdə yaradılmış “Kiçik Akademiya”ların fəaliyyəti canlandırılmışdır. Bütün ümumi orta və tam orta məktəbləri əhatə olunmaqla “Nə, harada, nə zaman” intellektual yarışı keçirilmişdir. Noyabr ayında start verilmiş bu tədbirə iyun ayının 1-də yekun vurulmuşdur. Qalib komandanın iştirakçıları qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

“Sabahın alimləri” müsabiqəsinin respublika mərhələsində Nizami adına şəhər 1 saylı tam orta məktəbin X sinif şagirdi Ustayev Elmir uğurla çıxış etmiş və respublika mərhələsində II yeri tutmuşdur. Texniki və Humanitar təmayüllü liseyin X sinif şagirdləri İsgəndərli Leyla Fazil qızı və Muradova Zərifə Akif qızı isə III nəticə göstərmişdir.

Fənn olimpiadalarının rayon turunda 405 nəfər, Şəki şəhərində keçirilən yarımfinalda isə 92 nəfər iştirak etmişdir. Yarımfinalın qaliblərindən 3 nəfər Respublika turunda iştirak etmək hüququ qazanmışdır. Nizami adına şəhər 1 saylı tam orta məktəbin IX sinif şagirdi Məmmədov Müslüm Qasım oğlu Respublika turunda da müvəffəqiyyətlə çıxış edərək I yeri tutmuş və qızıl medal almışdır.

12.05.2019-cu il taixdə VII sinif şagirdləri arasında keçirilən AlpLogo-2019 poqramlaşdırma olimpiadasının nəticələrinə görə Qazbinə kənd tam orta məktəbin şagirdi Xizri Saxrayev respublikada I yeri tutub. 14.04.2019-cu il tarixdə “Sketchup proqramında ən yaxşı üçölçülü model-2019” müsabiqəsi keçirilmişdir. Məktəblilərin qida təhlükəsizliyi istiqamətində təxəyyül və bilikləri rəsm əsəri vasitəsilə insanlara çatdırılmasını təmin etmək məqsədilə VII-IX sinif şagirdlərinin qatıldığı həmin müsabiqədə isə Saxrayev Xizri III yeri tutmuşdur.

Nizami adına şəhər 1 saylı tam orta məktəbin X sinif şagirdi Puçaxova Ariza “Mən Yusif Məmmədəliyevin davamçısı olmaq istəyirəm” adlı Respublika müsabiqəsində kimya fənni üzrə II yeri tutub.

13 mart 2019-cu il tarixdə rayon üzrə “Ən yaxşı təqdimat” müsabiqəsinin yekun turu keçirilmişdir. Həmin müsabiqədə Nəsimi adına şəhər 2 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Səfərli Bəhram Əlvan oğlu fərqlənmiş və cari ildə həmin müsabiqənin Respublika turunda müvəffəqiyyətlə çıxış etmiş, Təhsil Nazirliyinə dəvət olunaraq mükafatlandırılmışdır.

Azərbaycan sərhəd mühafizəsinin 100 illik yubileyi münasibəti ilə keçirilən müsabiqədə Katex-zavod kənd tam orta məktəbin şagirdi “Sərhədçi” əl işinə görə Vəlixanova Alvina Telman qızı I dərəcəli diplom və 500 manat pul mükafatı almışdır.

2019-cu ildə keçirilən qəbul imtahanlarında məzunlardan 420 nəfər iştirak etmişdir. Onlardan 282 nəfər şərəfli tələbə adını qazanmışdır. Ali məktəbə qəbul olan məzunlardan 6 nəfər 600 baldan çox, 33 nəfər isə 500-dən 600-ə qədər bal toplayıb. 2019-cu ildə ali məktəblərə qəbul olunanlar bütün məzunların 43 faizini, sənəd verənlərin 67 faizini təşkil edir. Ötən tədris ilində 225 nəfər (bütün məzunların 30, sənəd verənlərin 61 faizi) qəbul olmuşdur.

Qəbul imtahanlarında Liseyin (94), Nizami adına şəhər 1 saylı (57), Şəhər 3 saylı (55), Nəsimi adına şəhər 2 saylı (50), Yeni Şərif (86), Qaravəli (50), Tülü 1 saylı (50), Qazma 1 saylı (49), Talalar 1 saylı (47), Katex 1 saylı (45), Qaysa (44) tam orta məktəblərindən ali məktəblərə qəbul olunanların faiz göstəricisi rayonun orta faiz göstəricisindən yüksəkdir.

Azərbaycan Respublikasında 2019-cu ilin “Nəsimi ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 11.01.2019-cu il tarixli sərəncamının icrası istiqamətində bir sıra əhəmiyyətli tədbirlər keçirilmişdir. “Nəsimi-650” şeir müsabiqəsində Qullar 2 saylı kənd tam orta məktəbin X sinif şagirdi Aysun Telliyeva uğurla çıxış edərək sentyabr ayında Bakı şəhərində keçiriləcək Respublika müsabiqəsinə vəsiqə alıb.

2019-cu ilin iyun ayında Bakı şəhərində keçirilən yüngül atletika üzrə məktəblilərin Respublika çempionatında Şərif 1 saylı tam orta məktəbin komandası müxtəlif nominasiyalar üzrə Respublika birincisi və üçüncüsü olmuşdur. Qalib komandanın üzvləri 04 iyun tarixində Bakı şəhərinə dəvət olunmuş, yarışın təşkilatçıları - Azərbaycan Respublikası Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, yeni yaradılmış Azərbaycan Məktəb İdman Federasiyasının əməkdaşları və millət vəkillərinin iştirak etdikləri toplantıda onlara mükafatlar təqdim olunmuşdur.

Bütün ümumtəhsil məktəblərində valideyn assosiasiyaların işi yenidən qurulmuşdur. Ümumtəhsil məktəblərində sağlam mənəvi-psixoloji və təhlükəsiz mühit yaradılması, təhsilalanlarda müsbət davranış modelinin formalaşdırılması, ailə-məktəb münasibətlərinin düzgün tənzimlənməsi, bu istiqamətdə məktəb rəhbərliyi və müəllim kollektivinin məsuliyyətinin artırılmasına xüsusi önəm verilmişdir.

Azərbaycan dövlətinin, ən başlıcası, dövlət başçısının ümumi təhsilin inkişafı naminə gördüyü işlər ümumi təhsilin uğurlu gələcəyinə böyük inam yaradır. Rayonun bütün pedaqoji ictimaiyyəti respublikada təhsilin inkişafına göstərdiyi qayğıya cavab olaraq möhtərəm Prezidentimizin Azərbaycanımızın davamlı inkişafına yönəlmiş bütün tədbirlərini, daxili və xarici siyasətini ürəkdən bəyənir. Ölkəmizin tərəqqisi və davamlı inkişafı naminə Prezidentimiz tərəfindən həyata keçirilən bütöv strateji kurs rayonumuzun təhsil işçiləri tərəfindən qətiyyətlə dəstəklənir və gələcəkdə də dəstəklənəcəkdir.

Rayonumuzda təhsilin inkişafına rayon icra hakimiyyətinin başçısı İslam Rzayevin diqqəti və qayğısı çox böyük olmuşdur. Bu günlərdə ali məktəbə qəbul olunan məzunlarla görüşün keçirilməsi və yüksək bal toplayanların qiymətli hədiyyələrlə mükafatlandırılması bu qayğının bir daha təzahürüdür.

**Söhbəti qələmə aldı:**
**İlham PƏNAHOV,**
**“Respublika”.**

# Zaqatala: Tibbi xidmətin keyfiyyəti artırılır

**Rayon mərkəzi xəstəxanasının baş həkimi Məcid Əliyev görüşərkən özünə xas təvazökarlıqla - qoy xidməti daha da yaxşılaşdıraq, sonra yazarsınız - deyir. Sözünə davam edib onu da söyləyir ki, axı, həkimlər Hippokrat andına uyğun əhaliyə səhiyyə xidməti göstərməlidirlər. Nəhayət, çoxsaylı zaqatalalı oxucunun xahişini və bir də rayon mərkəzi xəstəxanasının fəaliyyətindəki ürəkaçan mənzərəni bir daha görəndən sonra baş həkimin razılığı ilə bu səhiyyə ocağının fəaliyyətindən aşağıdakı qeydləri qələmə aldıq.**

—Öncə məlumat verək ki, Məcid Əliyev terapevtdir və əvvəllər Şəki rayonunda səhiyyənin müxtəlif sahələrində çalışıb. Peşəsini yaxşı bildiyi kimi, idarəetmə sahəsində də kifayət qədər təcrübəsi var. Uzun illər Şəki Rayon Mərkəzi Xəstəxanasının baş həkimi vəzifəsini daşımışdır. Artıq bir neçə ildir Zaqatala Rayon Mərkəzi Xəstəxanasının baş həkimidir. O, indi rəhbərlik etdiyi kollektivin fəaliyyətindən söhbət açaraq dedi:

—Ölkəmizdə səhiyyənin inkişafı son iki onillikdə ən yüksək zirvələri fəth edib. Vaxtilə bəzi xəstəliklərin müalicəsi üçün xarici dövlətlərə üz tutanlar bu gün Azərbaycan səhiyyəsində dünya səviyyəli xidmətlərin olduğundan, həkimlərimizin yüksək peşəkarlığından iftixarla danışır və bundan hədsiz qürurlandıqlarını bildirirlər. Əlbəttə, bütün bunlara ulu öndər Heydər Əliyevin çox-çox uzaqların xoş sorağını diktə edən strategiyasının uğurla həyata keçirilməsi sayəsində nail olunub. Bu gün ölkəmizin, demək olar, bütün regionlarında müalicə-diaqnostika mərkəzləri, yeni beynəlxalq standartlara cavab verən, tibb inventar-avadanlıqlarla, dərman preparatları ilə təmin olunan səhiyyə müəssisələri fəaliyyətdədir. Daha kəndli respublikanın paytaxtında yox, öz regionundakı səhiyyə ocağında qayğılarını həll edə bilir. Zaqatala Rayon Mərkəzi Xəstəxanası 250 çarpayılıqdır. Bundan başqa, rayonda 21 həkim məntəqəsi fəaliyyət göstərir. İstər mərkəzi xəstəxanada, istərsə də kənd və qəsəbələrdəki səhiyyə ocaqlarında əhaliyə lazımi səviyyədə xidmət göstərilməsinə xüsusi diqqət yetirilir.

Əhalinin sağlamlığı naminə həyata keçirilən bütün tədbirlər, ən başlıcası da onların vaxtlı-vaxtında tibbi müayinədən keçirilməsi, sosial qayğıların ana xəttidir. Axı, bu Hippokrat andı içən, həmişə ömür keşikçisi kimi çağırılan səhiyyə işçisinin müqəddəs borcudur. Rayonumuzda olan şəkərli diabet, vərəm, onkoloji və s. xəstələr dispanser qeydiyyatında olmaqla yanaşı, daim lazımi xidmət, dərman preparatları ilə təmin edilirlər. Əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması məqsədilə xəstəxanamıza flüoqrafiya aparatı gətirilmiş və istifadəyə verilmişdir. Hamilə və zahıl qadınların tam müayinəsini təşkil etmək üçün həkim briqadaları yaradılır və həftəlik müayinələr təşkil olunur. Briqadaların işinin səmərəliliyini artırmaq məqsədilə 2 Portativ Ultrasəs müayinəsi cihazı və laborator müayinələrin təşkili üçün dəst alınıb həkimlərin istifadəsinə verilmişdir. Bu gün rayonumuzda 50-yə yaxın ailə həkimi fəaliyyət göstərir. Zaqatalalılarla həmsöhbət olsanız, həkimlərimizdən **Rəna Sultanovanın, Mehriban Hüseynovanın, Məmmədrəsul Teyyubovun, “Tərəqqi” medallı Elşən Məmmədovun, Vaqif Bayramovun** və başqalarının xidmətindən razılıqla danışdıqlarını eşidərsiz.

Baş həkimlə birlikdə mərkəzi xəstəxananın bəzi şöbələrində, xidmətin vəziyyəti, həkim və orta tibb işçilərinin vəzifə borclarına münasibəti ilə yerində maraqlanarkən hər yerdə yüksək səviyyəli səliqə-sahman, həkim qayğıkeşliyi, səhiyyə işçilərindən çoxlu razılıqlarla qarşılaşdıq. Poliklinika şöbəsindəki canlanma isə diqqətimizi daha çox cəlb etdi.

—Bu da öncə söhbət açdığımız əhalinin tibbi müayinəsinin canlı mənzərəsi, - deyə Məcid həkimi işarə verdi. Sözünə davam edib - xidmətin bu sahəsinə xüsusi fikir verilir. Həkim və tibb işçilərimiz çalışırlar ki, heç kim buradan narazı getməsin. Müayinəyə gələnlər ardıcıllıqla qəbul olunur, müraciətlərinə uyğun poliklinika şöbəsinin işçiləri tərəfindən istiqamətləndirilirdi. Şöbənin müdiri Məmmədrəsul Teyyubov söhbət zamanı vurğuladı ki, heç kimin narazı ayrılmasına, hər bir vətəndaşa həssaslıqla yanaşılmasına xüsusi fikir verilir, xəstəxananın rəhbərliyi bunun üçün bütün imkan və şəraitin yaradılmasına yaxından köməklik edir. Hər gün poliklinikamızda 600-dən çox adam müayinədən keçir. Pulsuz tibbi müayinədən keçən 90 minə yaxın əhalidən xəstəlik aşkarlananlar ambulator, stasionar müalicəyə cəlb olunub, bir neçə nəfər Bakıya göndərilib.

Rayonun Əliabad qəsəbə, Yeni Suvagil və Danaçı kənd xəstəxanalarında da qarşıya qoyulan vəzifələr layiqincə yerinə yetirilir.

**Rasim AMANOV,**
**“Respublika”.**

# Bu gün Sumqayıt dirçəliş dövrünü yaşayır

**2019-cu ilin noyabr ayında Sumqayıtın şəhər statusu almasının 70 illiyi tamam olur. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev 14 fevral 2019-cu il tarixində “Sumqayıt şəhərinin 70 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalayıb.**

Hələ Sovetlər dönəmində kimya sənayesi mərkəzi olan Sumqayıt yarandığı dövrdən etibarən müasir sənaye şəhərinə çevrilmək istiqamətində parlaq inkişaf yolu keçib, qısa zaman müddətində sürətli inkişafı ilə bütün diqqəti üzərinə cəmləyərək Azərbaycanda, eləcə də Cənubi Qafqaz regionunda ən böyük sənaye mərkəzlərindən birinə çevrilib. Son illər ərzində ölkə Prezidentinin Sumqayıta göstərdiyi diqqət və qayğı nəticəsində həm şəhər infrastrukturu, həm də sənaye müəssisələri xeyli inkişaf edib. Şəhər qısa zaman ərzində ölkənin aparıcı sənaye mərkəzlərindən biri kimi tanınıb, eyni zamanda mədəniyyət, elm, təhsil, səhiyyə, idman və digər sahələrdə böyük uğurlar əldə edib. Müvəffəqiyyətlə həyata keçirilən Dövlət proqramları və infrastruktur layihələri çərçivəsində “Sumqayıt Texnologiyalar Parkı” və “Sumqayıt Kimya Sənaye Parkı” və digər mühüm obyektlər qurulub, sənaye sahələri qabaqcıl texnoloji avadanlıqlarla təchiz edilib. “Sumqayıt Kimya Sənaye Parkı”nın tikilməsi üçün 1 milyard dollardan çox xarici və daxili investisiyanın cəlb olunması, minlərlə yeni iş yerinin açılması, eyni zamanda Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcək polimerlər, karbamid kimi gübrə və s. kimya məhsulları istehsalı zavodlarının tikilməsi dövlət başçısının Sumqayıta göstərdiyi qayğı və diqqətin nəticəsidir.

Respublikanın aparıcı elmi mərkəzlərindən biri olan Azərbaycan Milli Elmlər Akademiyasının Polimer Materialları İnstitutu 1966-cı ildən Sumqayıt şəhərində fəaliyyət göstərir. Yarım əsrdən artıq tarixə malik olan institut Sumqayıt şəhərində əvvəlcə Azərbaycan Elmlər Akademiyasının Neft-kimya Prosesləri İnstitutunun filialı, 1974-cü ildən Xlorüzvi Sintez İnstitutu və 1991-ci ildən isə Polimer Materialları İnstitutu kimi fəaliyyət göstərir. İnstitutun ilk direktoru professor S.İ.Sadıqzadə (1966-1973-cü illərdə) olmuş, sonra bu instituta Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü M.M.Hüseynov (1973-1986-cı illərdə), akademik A.A.Əfəndiyev (1987-2007-ci illərdə), 2008-2014-cü illərdə AMEA-nın müxbir üzvü A.M.Quliyev, akademik A.H.Əzizov (2014-2016-cı illərdə) rəhbərlik etmişlər. Hazırda instituta AMEA-nın müxbir üzvü Bəxtiyar Məmmədov rəhbərlik edir.

53 illik fəaliyyəti dövründə institut alimlərinin elmi işləri Azərbaycanda xlorüzvi birləşmələr və polimer istehsalının problemlərinin həllinə, yeni polifunksional reaksiyayaqabil yüksək istismar göstəricilərinə malik polimerlər, polimer qarışıqları, polimer materiallarına əlavələr və katalizatorların işlənib hazırlanmasına, mikroelektronikada, kənd təsərrüfatında və cihazqayırmada istifadə edilən işığahəssas, termiki davamlı, antistatik və elektrikkeçirici polimer sistemlərin, o cümlədən nanokompozitlərin yaradılmasına, yüksəkmolekullu birləşmələr kimyası və üzvi kimya sahəsində fundamental tədqiqatların həyata keçirilməsinə həsr olunmuşdur.

İnstitut alimlərinin apardıqları tədqiqatların nəticələri və verdikləri tövsiyələr müxtəlif illərdə sənaye miqyasında Azərbaycanda və keçmiş Sovet İttifaqının polimer və üzvi sintez, polimer materialların hazırlanması sahələrində fəaliyyət göstərən zavodlarında geniş sınaqlardan keçirilmiş və bəziləri uğurla tətbiq olunmuşdur.

Hazırda AMEA-nın Polimer Materialları İnstitutunda fizioloji fəal yeni üzvi birləşmələrin və müxtəlif təyinatlı səciyyəvi xassələrə malik funksional polimerlərin sintezi, yüksək möhkəmliyə və istiliyə davamlı yeni polimer kompozisiya materiallarının alınması, polimer materiallarının emalı və ekoloji problemlərin həlli istiqamətində elmi-tədqiqat işləri yerinə yetirilməkdədir.

İnstitut bu gün də akademiyanın müəssisələrində, ali məktəblərdə və respublikanın sahə institutlarında polimerlər kimyası sahəsində aparılan tədqiqatların əlaqələndiricisi kimi elmin və təhsilin tərəqqisi işinə layiqli töhfələr bəxş edir. İnstitutda yerinə yetirilən elmi-tədqiqat işləri haqqında Sumqayıt sənaye rayonunda yerləşən zavodlara və bir sıra müəssisələrə məlumat verilir, tətbiq üçün müvafiq tədbirlər həyata keçirilir.

Alimlərimiz müxtəlif təhsil ocaqlarında pedaqoji fəaliyyətlə məşğul olaraq gənc nəslin tərbiyəsində fəal iştirak edir, sürətli inkişafda olan ölkəmizdə perspektiv polimer materiallarının yaradılması sahəsində yeni innovativ elmi və praktiki nəticələrin əldə edilməsinə çalışırlar. İnstitutda Təhsil şöbəsinin fəaliyyət göstərməsi, magistratura pilləsinə qəbulun aparılması, magistrantların işlə təmin olunması təhsil və elmin vəhdətinə imkan yaradır. İnstitutun nəzdində fəaliyyət göstərən Sumqayıt Dövlət Universiteti ilə birgə yaradılmış Elm və Tədris Mərkəzi fundamental elmlə təhsilin inteqrasiyası istiqamətində atılan uğurlu addımlardan biridir. Gənc nəsildə elmə olan marağı məktəb illərindən etibarən aşılamaq məqsədi ilə institut alimlərinin mütəmadi olaraq tələbə və məktəblilərlə görüşləri keçirilir, onların bu elm ocağına ekskursiyaları və “Açıq qapı” günləri təşkil olunur. Belə görüşlərin keçirilməsi gənclərə kimya elmi sahəsində sözünü demiş təcrübəli alimlərin mühazirələrini dinləmək və laboratoriyalarda müasir cihazlarla aparılan təcrübələri yaxından izləmək imkanı verir.

İnstitut əməkdaşlarının əməyi ölkə Prezidenti, Akademiya rəhbərliyi və şəhər icra başçısı tərəfindən yüksək təltiflər və mükafatlarla qiymətləndirilmişdir. İnstitutun bir qrup aparıcı alimi Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə “Şöhrət” və “Şərəf nişanı” ordenləri, “Tərəqqi” medalı, fəxri adlarla təltif olunmuşlar. “Təhsildə Dinamik Fəzavi Təfəkkür” nəzəriyyəsinin yaradıcısı AMEA-nın müxbir üzvü Mustafa Salahov “Prezidentin fərdi təqaüdünə” layiq görülmüşdür.

İnstitutun 4 gənc əməkdaşı “2 Fevral - Gənclər Günü” münasibətilə “İlin gənc ixtiraçı alimi” nominasiyasında Sumqayıt Şəhər İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə, 4 alim isə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun Sərəncamına əsasən Fəxri Fərmanla təltif edilmişlər.

İnstitutda “Gənc Alim və Mütəxəssislər Şurası” fəaliyyət göstərir. Hər il Şuranın təşkilatçılığı ilə müxtəlif tədbirlər keçirilir, konfrans və iclaslarda elmi-populyar mövzularda məruzələr təşkil olunur.

İnstitutun inkişafı və yüksəlişi onun elmi potensialı ilə müəyyən olunur. Hazırda institutda 256 əməkdaş çalışır, onlardan 92-si elmi işçi, 4-ü AMEA-nın müxbir üzvü, 11-i elmlər doktoru və 38-i fəlsəfə doktorudur.

İnstitutun fəaliyyəti dövründə əməkdaşlar tərəfindən 26 kitab, 9 monoqrafiya, 3 biblioqrafiya, 2300-dən artıq konfrans materialları, 1000-ə yaxın müəlliflik şəhadətnamələri, bundan əlavə 2100-dən çox məqalə respublika və xarici mətbuatda çap olunmuşdur. İndiyə qədər institutun alimləri və elmi işçiləri tərəfindən 18 qrant alınmışdır. Bunlardan 10-u xarici qrant, 8-i Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Elm Fondunun qrantlarıdır. Hazırda 2 beynəlxalq qrant üzrə işlər davam etdirilir.

Alimlərimizin rəhbərliyi ilə bir çox magistr və doktorluq dissertasiyaları müvəffəqiyyətlə müdafiə olunur. Hazırda institutda 2 magistr, 5 doktorant və 23 dissertant elmi iş üzərində çalışır. 2015-ci ildən başlayaraq ixtisas fənləri üzrə qəbul və doktorluq imtahanları test texnologiyaları əsasında aparılır.

2017-ci ildən institut üzrə Viki-Şura fəaliyyət göstərir. Azərbaycan həqiqətlərinin virtual məkanda təbliği, yayılması və Vikipediyanın zənginləşdirilməsi məqsədi ilə görkəmli kimyaçı alimlər haqqında biblioqrafik məqalələr, institutun saytında olan kadr resursları haqqında materiallar, institutun məhsulları olan yeni kimyəvi maddələr və proseslər haqqında məlumatlar hazırlanaraq mütəmadi olaraq Vikipediyada yerləşdirilir. Eyni zamanda bu məlumatlar mütəmadi olaraq institutun veb-saytında və “facebook” sosial şəbəkəsində yerləşdirilir, AMEA-nın rəsmi saytına və KİV-ə göndərilir.

Polimer Materialları İnstitutu ilə AMEA-nın Gəncə bölməsi Ekologiya və Təbii Ehtiyatlar İnstitutu, Azərbaycan Dövlət Tibb Universiteti, AMEA-nın Radiasiya Problemləri İnstitutu, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Milli Aviasiya Akademiyasının Aviasiya Elmi-Tədqiqat İnstitutu, AMEA-nın Geologiya və Geofizika İnstitutu, AMEA-nın akademik M.F.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu arasında müqavilələr üzrə işlər aparılmaqdadır.

İnstitutun alimləri uzun illər ərzində keçmiş SSRİ-nin və digər ölkələrin akademik və elmi-tədqiqat institutları ilə sıx əlaqə saxlamışlar. Bu əlaqələr indi də davam etdirilir, elm, texnologiya və innovasiyalar sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində işlər aparılır. Polimer Materialları İnstitutu ilə Rusiyanın D.Mendeleyev adına Kimya-Texnologiya Universiteti, Rusiya Elmlər Akademiyasının N.D.Zelinski adına Üzvi Kimya İnstitutu, Belarus Milli Elmlər Akademiyasının Metalpolimer Sistemlərin Mexanikası İnstitutu, Bolqarıstan Elmlər Akademiyasının Polimer İnstitutu, Başqırdıstan Dövlət Universiteti arasında bağlanmış elmi əməkdaşlıq haqqında müqavilələrə əsasən elmi-tədqiqat işləri yerinə yetirilir.

İnstitutda yerinə yetiriləcək işləri yeni istiqamətə yönəldərək “varislik-yenilik” prinsipi üzrə davam etdirməklə multidissiplinar layihələrin baza maliyyəsi olmadan ayrı-ayrı proqramlar üzrə həyata keçirilməsi planlaşdırılır. İnstitutun mövzu planında və tərtib olunan elmi-texniki proqramlarda bazarın tələblərinə uyğun tətbiqi xarakterli mövzuların payının artırılması üzrə işlər aparılır. Bu istiqamətlərdə tədqiqatların genişləndirilməsi sürətli inkişafda olan ölkəmizdə perspektiv polimer materialların yaradılması sahəsində yeni innovativ elmi və praktiki nəticələrin əldə edilməsini təmin edəcəkdir. İnstitutun fəaliyyətinin əvvəlkindən daha yüksək səviyyədə bərpa olunması, onun müasir avadanlıqlarla və yüksəixtisaslı gənc kadrlarla təmin olunması hörmətli Prezidentimiz İlham Əliyevin və AMEA prezidenti akademik Akif Əlizadənin diqqətində saxlanılır.

Son illər şəhər əhalisinin yaşayış səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib. Sumqayıt əhalisi şəhər infrastrukturunun yenidən qurulması üçün Prezidentin Ehtiyat Fondundan mütəmadi olaraq vəsaitlərin ayrılmasını hər zaman yüksək qiymətləndirir. Sumqayıta hər səfərində şəhərdə mühüm açılışlar edən və son illərdə Sumqayıtın inkişafını diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin hər gəlişi şəhər əhalisi üçün əsl bayrama çevrilir. Cənab Prezidentin diqqəti və icra hakimiyyəti başçısının səmərəli fəaliyyəti Sumqayıt ziyalıları, elm adamları və əhalisini daha məsuliyyətlə fəaliyyətə sövq edir.

**Esmira İMANOVA,**
**AMEA Polimer Materialları İnstitutunun Beynəlxalq ictimaiyyətlə əlaqələr və qrant layihələri şöbəsinin müdiri.**

# Dövlət Sərhəd Xidməti Mətbuat Mərkəzinin məlumatı

Dövlət sərhədinin etibarlı mühafizəsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

20 sentyabr 2019-cu il tarixində, saat 21:05 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Cəlilabad-Yardımlı avtomobil yolunda Buravar kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində içərisində 2 nəfərin olduğu avtomobilin əraziyə yaxınlaşması, avtomobildən bir nəfərin düşərək özünü şübhəli aparması və ətrafı müşahidə etməsi sərhəd naryadının diqqətini cəlb etmişdir.

Şübhəli şəxs gizlin yerdən bağlama götürərək hadisə yerindən uzaqlaşmağa cəhd edərkən sərhədçilər tərəfindən ona "dayan" əmri verilmiş, lakin o, əmrə tabe olmayaraq ərazidən uzaqlaşmağa çalışmışdır. Sərhəd naryadı tərəfindən yaxalanması zamanı şübhəli şəxs müqavimət göstərmiş, baş leytenant Allahverdi İsmayılova bıçaq ilə xəsarət yetirmişdir. Buna baxmayaraq, sərhədçi zabit şücaət nümayiş etdirmiş və cinayətkarı tərk-silah edərək saxlamışdır.

Hadisə zamanı xəsarət almış sərhədçiyə təxirəsalınmaz tibbi yardım göstərilmişdir, vəziyyəti qənaətbəxşdir.

Saxlanılan şəxsin 1975-ci il təvəllüdlü Cəlilabad rayon sakini Əliyev Elşən Dövlət oğlu olması müəyyənləşdirilmiş, əraziyə atılmış bağlamaya baxış zamanı içərisində 1 kq 125 qram "marixuana", 1 kq 10 qram "tiryək" və 450 qram "heroin" narkotik vasitə aşkarlanaraq götürülmüşdür.

İdarə etdiyi avtomobil ilə hadisə yerindən qaçmış digər şəxsin saxlanılması istiqamətində təxirəsalınmaz əməliyyat-qoşun tədbirləri həyata keçirilmiş, ərazi dərhal qapadılaraq ətrafda axtarış aparılmışdır. Nəticədə hadisə yerindən qaçmış şəxs Cəlilabad rayonunun Buravar kəndinin yaxınlığında saxlanılmışdır. Həmin şəxsin 1979-cu il təvəllüdlü Naxçıvan MR, Babək rayon sakini Quliyev Samir Vidadi oğlu olması müəyyənləşdirilmiş, avtomobilin içərisindən 55 qram "tiryək" narkotik vasitə və şəxsi əşyalar aşkarlanaraq götürülmüşdür.

Qeyd olunan fakt üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# 8 minədək uşaq sosial xidmətlərlə təmin olunur

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırda 8 minədək uşaq stasionar və yarımstasionar şəraitdə sosial xidmətlərlə təmin olunur.**

